18 sentyabr 2024 №69 (2134)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azərbaycanda çalışmaqdan məmnunluq duyuram



Prezident İlham Əliyev sentyabrın 17-də Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Zəkiyyə İğilin etimadnaməsini qəbul edib.

Azərbaycanın gözəl ölkə olduğunu və buraya gəlməkdən sevinc hissi duyduğunu ifadə edən səfir fəaliyyəti dövründə əlaqələrin daha da genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirib.

səh. 2

## MSK parlament seçkilərinə yekun vurdu

Mərkəzi Seçki Komissiyasının (MSK) sentyabrın 16-da keçirilən iclasında Milli Məclisə seçkilərə yekun vurulub.



İclasda yeddinci çağırış Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyası tərəfindən seçkilərin ümumi yekunlarına dair protokolun tərtib olunması, MSK-nın protokolunun və seçkilərin yekunlarının təsdiq olunması, seçkilərin yekunlarının yoxlanılması və təsdiqlənməsi üçün Konstitusiya Məhkəməsinə təqdim edilməsi məsələsi səsverməyə çıxarılaraq qəbul olunub.

Bildirilib ki, sentyabrın 1-də Milli Məclisə növbədənkənar seçkilər 125 seçki dairəsi üzrə 6478 seçki məntəqəsində keçirilib. Səsvermədə ölkə üzrə qeydə alınmış seçicilərin 37,24 faizi iştirak edib.

Komissiya sənədlərin yoxlanılması nəticəsində seçicilərin iradəsinin müəyyənləşdirilməsi mümkün olmayan bir sıra dairələr üzrə ayrı-ayrı məntəqələrdə səsvermənin nəticələrini etibarsız hesab edib. Seçkilərin hazırlanması, keçirilməsi və səsvermənin nəticələrinin müəyyənləşdirilməsi zamanı fəaliyyətlərində nöqsanlara yol verən ümumilikdə 35 məntəqə seçki komissiyasının tərkibi buraxılıb.

Bununla belə, ləğv edilmiş məntəqələr üzrə nəticələrin etibarsız sayılması MSK-nın sentyabrın 2-də elan etdiyi dairələr üzrə ilkin nəticələrə (lider namizədlər siyahısına) təsir etməyib.

Qeyd edək ki, seçkilərin yekunlarının Konstitusiya Məhkəməsində təsdiqlənməsindən sonra yeddinci çağırış Milli Məclis fəaliyyətə başlayacaq.

## Gəncədə "Nizami günləri" rəngarəng tədbirlərlə yadda qalıb

Xəbər verdiyimiz kimi, 11-15 sentyabr tarixlərində Mədəniyyət Nazirliyi və Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə dahi Azərbaycan şairi Nizami Gəncəvinin xatirəsinə həsr olunmuş "Nizami günləri" layihəsi keçirilib.




Layihə çərçivəsində "Qiraət axşamı" adlı tədbir təşkil edilib. Gəncə Dövlət Kukla Teatrı aktyorlarının ifasında Nizaminin "Yeddi gözəl" poemasından ərsəyə gətirilən "Xeyir və Şər" tamaşası, Gəncə Dövlət Milli Dram Teatrının təqdimatında "Sələflər və xələflər" kompozisiyası, "Leyli və Məcnun" operasından Leyli və Məcnunun səhrada görüş səhnəsi təqdim edilib.

Bədii qiraətçilər şairin "Sənsiz", "Sevgili canan", "Yenə tövbə eyvini eşq xərab etmədədir" və başqa qəzəllərini oxuyublar.

Gəncə şəhər 31 nömrəli tam orta məktəbin ibtidai sinif şagirdlərinin ifasında Nizaminin şeirlərindən ibarət kompozisiya da maraqla qarşılanıb.

"Qiraət axşamı"nın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Hafiz Quliyevdir.

davamı səh. 4-də

# Doğum günü bayram olan dahi

### Mədəniyyət tariximizin ilklərini yazan Üzeyir bəyin 139 yaşı tamam olur

Azərbaycanda klassik musiqinin, milli bəstəkarlıq məktəbinin, ilk milli opera və operettanın yaradıcısı, eləcə də mədəniyyət tariximizin qızıl səhifələrini təşkil edən bir çox ilklərin müəllifi Üzeyir Hacıbəylinin doğum günü – 18 sentyabr ölkəmizdə hər il Milli Musiqi Günü kimi qeyd olunur.



18 sentyabr hələ sovet dövründə dahi bəstəkarın adı ilə mədəniyyət təqvimimizdə öz yerini haqq etmişdi. Xüsusilə, 80-ci illərdə bu gün musiqi axşamları, konsert proqramları ilə qeyd olunurdu.

Azərbaycanın müstəqilliyini bərpa etməsi zəngin mədəniyyətimizin, o cümlədən musiqi sənətimizin və onun ən böyük dühası Üzeyir bəyin ölməz irsinin dünyaya daha geniş miqyasda tanıdılması üçün də imkanlar açdı.

Müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyev 1995-ci il sentyabrın 1-də dahi bəstəkarın anadan olmasının 110 illik yubileyinin keçirilməsi ilə bağlı sərəncam, sentyabrın 18-də isə "Üzeyir musiqi gününün keçirilməsi haqqında" fərman imzaladı.

Bu tarixi fərmanda onun dahi Azərbaycan bəstəkarı, milli operanın banisi, böyük musiqişünas-alim, publisist və pedaqoqun Azərbaycan musiqi sənətinin inkişafında misilsiz xidmətləri nəzərə alınaraq, böyük sənətkara xalq ehtiramını və məhəbbətini təcəssüm etdirmək məqsədilə imzalandığı vurğulanırdı. Fərmanla Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinə hər il sentyabr ayının 18-də Üzeyir musiqi gününün keçirilməsini təmin etmək tapşırıldı.

Beləliklə, Üzeyir bəyin dünyaya gəldiyi gün milli musiqi bayramı kimi mədəniyyət təqvimimizə yazıldı.

2009-cu ildə isə dahi bəstəkarın adı ilə şərəflənən Beynəlxalq Musiqi Festivalının əsası qoyuldu. Hər il sentyabrın 18-də başlanan və müxtəlif ölkələrdən musiqi kollektivlərini, ifaçıları, dirijorları, musiqişünasları bir araya gətirən beynəlxalq festival bu il 16-cı dəfə təşkil olunur.

18-28 sentyabr tarixlərində Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Üzeyir Hacıbəyli XVI Beynəlxalq Musiqi Festivalı keçiriləcək. İştirakçı coğrafiyası bu il daha da genişlənən festivala ABŞ, Rusiya, Almaniya, İspaniya, Avstriya, Xorvatiya, Koreya, Türkiyə, Braziliya, Hindistan və digər ölkələrdən musiqiçi və kollektivlər dəvət olunub.

Artıq dördüncü ildir (2021-ci ildən) bu bayramın sədası Üzeyirin doğma şəhərindən – Azərbaycan mədəniyyətinin paytaxtı Şuşadan da gələcək. Həmçinin bu il festival konsertləri Bakıdan Gəncəyə, Şəmkirə, Qəbələyə, Naxçıvana və Lənkəranadək geniş coğrafiyanı əhatə edəcək.

Bir sözlə, yurdda bayramdır – musiqi, sənət, mədəniyyət bayramı.

Mövludu bayram olan dahi, doğum günün mübarək olsun!

## "Struma səhnələri"ndə azərbaycanlı uşaqların əl işləri nümayiş olunub

Bolqarıstanın Yunanıstanın Saloniki şəhərindəki Baş Konsulluğunun himayəsi, Bakı Slavyan Universitetinin Müqəddəs Kliment Oxridski adına Sofiya Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin tərəfdaşlığı ilə Küstendil şəhərində IV "Struma səhnələri" beynəlxalq festivalı keçirilir.



Builki festivalda Azərbaycan, Almaniya, Yaponiya, Kamboca, İsveçrə, Çin və digər ölkələrin nümayəndələri konsert, tamaşa və sərgilər təqdim edirlər.

Azərbaycan Dili və Mədəniyyəti Mərkəzi festivalda "Qızılgül – Azərbaycan-bolqar dostluğunun rəmzi" mövzusunda rəsm sərgisini nümayiş etdirib.

"Struma səhnələri"nin direktoru Nadejda Dimitrova sərginin açılışında mərkəzin festivalın yaxın tərəfdaşı olduğunu qeyd edib və onun dəstəyini yüksək qiymətləndirib.

Mərkəzin müdiri Sofiya Şıqayeva-Mitreska sərginin yaranma ideyasından danışıb. Bildirib ki, bu sərgi mart ayında Azərbaycan Dili və Mədəniyyəti Mərkəzi ilə Milli Azərbaycan Tarixi Muzeyinin birgə həyata keçirdiyi "Bahar paralelləri: Azərbaycan-Bolqarıstan" layihəsinin bir hissəsidir. Həmin layihədə qızılgül rəsmləri Azərbaycanda yerləşən "Uni Kids Club" studiyasının uşaqları tərəfindən çəkilib. Layihənin digər hissəsi xarıbülbül gülünə və nar çiçəyinə həsr edilib.

Sərginin açılışından sonra uşaqlar üçün xarıbülbül formasında kompozisiya yaratmaq üçün ustad dərsi keçirilib.

## Azad torpaqlarda dərsə gedən uşaqlar

### 32 ildən sonra Şuşada, Xocalıda məktəb zəngi çalınıb

Otuz ilə yaxın davam edən işğaldan sonra azadlığa qovuşan yurd yerlərimizdə məktəb zəngləri səslənib.



Qeyd edək ki, 2024–2025-ci tədris ilinin ilk günü ümumilikdə səkkiz belə məktəbdə dərslər başlayıb. O cümlədən Xocalı şəhər 1 nömrəli tam orta məktəbdə, Laçın rayonunun Sus kənd tam orta məktəbində və Şuşa şəhəri 1 nömrəli tam orta məktəbdə ilk dəfə tədrisə başlanılıb. Daha beş məktəbdə isə bu sevinc ötən il də yaşanmışdı.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi 15 sentyabr – Bilik Günü ilə əlaqədar işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən məktəblər haqqında videoçarx hazırlayıb.

Videoçarxda Füzuli şəhər Mirzə Uluqbəy adına 1 nömrəli, Şuşa şəhər 1 nömrəli, Xocalı şəhər 1 nömrəli, Laçın şəhər 2 nömrəli tam orta məktəblərin, həmçinin Laçın rayonunun Zabux və Sus kənd, Ağdərə rayonunun Talış kənd və Zəngilan rayonunun Ağalı kənd tam orta məktəblərinin görüntüləri, şagirdlərin ilk dərs gününə hazırlıq, məktəbə yola düşmələri, dərs proses öz əksini tapıb.

davamı səh. 2-də

## "Qara qızıl" rənglərin işığında



Bu il "Əsrin müqaviləsi"nin imzalanmasının 30 illiyidir. İqtisadi müstəqilliyimizin təməli olmuş bu müqavilənin yubileyi ərəfəsində milli təsviri sənətdə neft mövzusundan söz açmaq istəyirik. Qalereyalarımızda özünəməxsus dəst-xətə malik rəssamların neft mövzusunda müxtəlif janr və texnikalarda yaratdıqları əsərlər qorunur.

səh. 6



## Üzeyir bəyin evində "Sənət akademiyası" istedadlarının konserti

səh. 2



## Bölgələrdə mədəni həyat

səh. 4

# Avropanın ehtiyac duyduğu ölkələr: Azərbaycan və Əlcəzair əməkdaşlıqdan məmnundur



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Zəkiyyə İğılın etimadnaməsini qəbul edib.

Dövlətimizin başçısı səfirlə söhbət edib.

Ölkələrimiz arasında müxtəlif səviyyələrdə münasibətlərin məmnunluq hissi doğurduğunu deyən İlham Əliyev siyasi, iqtisadi, enerji sahələrində əməkdaşlığın inkişaf etdirilməsinin önəmini vurğulayıb.

Azərbaycanın gözəl ölkə olduğunu və buraya gəlməkdən sevinc hissi duyduğunu ifadə edən səfir, ilk növbədə, Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelmacid Tebbunun salamlarını dövlətimizin başçısına çatdırıb. 2022-ci ildə Azərbaycan Prezidentinin Əlcəzairə səfərinin əlaqələrimizin tarixində yeni səhifə olduğunu deyən diplomat fəaliyyəti dövründə əlaqələrin daha da genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirib.

Əlcəzair Prezidentinin salamlarına görə minnətdarlığını bildirən dövlətimizin başçısı onun da salamlarını Abdelmacid Tebbuna çatdırmağı xahiş edib.

Prezident İlham Əliyev Azərbaycan və Əlcəzair arasında beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı (QH) çərçivəsində əməkdaşlığın davam etdirilməsinin zəruriliyini qeyd edib, Azərbaycanın QH-yə sədrliyi müddətində Əlcəzairin ölkəmizə göstərdiyi dəstəyə və həmrəyliyə görə təşəkkürünü bildirib.

Prezident ölkələrin suverenliyi, ərazi bütövlüyü, çoxtərəflilik və neokolonializmlə mübarizə məsələlərinin vacibliyinə toxunub.

Əlcəzairə səfəri zamanı Milli Mücahidlər Muzeyini ziyarət etdiyini xatırladan İlham Əliyev qeyd edib ki, Əlcəzair xalqına qarşı törədilmiş cinayətlər və vəhşiliklərlə bağlı orada gördükləri onda xüsusi heyrət doğurub.

Prezident vurğulayıb ki, ölkəmiz QH-yə sədrliyi dövründə olduğu kimi, hazırda da keçmiş imperiyaların müstəmləkə üsul-idarəsindən əzab-əziyyət çəkən xalqların azadlığı və suverenliyi işinə dəstək verilməsi istiqamətində fəaliyyətini davam etdirir.

Dövlətimizin başçısı Azərbaycanın və Əlcəzairin Avropa qitəsinə mühüm qaz ixracatçısı olduqlarını qeyd edərək OPEC+ çərçivəsində yaxından əməkdaşlığın aparılmasından məmnunluğunu ifadə edib.

COP29-un ölkəmizdə keçirilməsi münasibətilə də təbriklərini çatdıran səfir Azərbaycanın bu mühüm tədbirə uğurla ev sahibliyi edəcəyinə əminliyini bildirib.

## Musiqimiz Norveçdə səsləndirilib

Norveç Televiziya və Radiosu Simfonik orkestrinin zalında Azərbaycan musiqisinə həsr olunmuş kamera konserti keçirilib.



Diaspora İş üzrə Dövlət Komitəsindən bildiriblər ki, konsert soydaşımız, skripka ifaçısı Narın Musayeva Folgerö və onun musiqiçi həmkarlarının təşkilatçılığı ilə baş tutub.

Sumqayıt şəhərində doğulan, hazırda Norveçdə yaşayan həmyerlimiz bir sıra müsabiqə və festivallarda iştirak edib, mükafatlara layiq görülüb. 10 ildən çoxdur ki, Norveç Televiziya və Radiosunun Simfonik orkestrində skripka ifaçısıdır.

N.Musayeva Folgerö və həmkarlarının konsertində Ü.Hacıbəylinin "Arazbarı", "Aşıqsayağı", Q.Qarayevin simli kvarteti, skripka və fortepiano üçün sonatası, "İldırımlı yollarla" baletindən miniatürləri, "Don Kixot" simfonik qravürlərindən "Səyahət", F.Əmirovun "Muğam-poema", "Məhəbbət rəqsi", həmçinin "Bayatı-Şiraz" muğamının solo skripka üçün işləməsi səsləndirilib. Muğamı solo skripka üçün Mirhəşim Həşimov və Azad Əliyev işləyib.

Yerli sakinlərlə yanaşı qonşu ölkələrdən də dinləyicilərin olduğu konsert böyük maraqla qarşılanıb.

## Azad torpaqlarda dərsə gedən uşaqlar

*əvvəli səh. 1-də*

Şuşa şəhərində 32 ildən sonra ilk məktəb zəngi çalınıb. Bilik Günü münasibətilə keçirilən tədbirdə elm və təhsil naziri Emin Əmrullayev, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov, digər rəsmilər iştirak ediblər.

Emin Əmrullayev müəllim və şagirdləri yeni dərs ilinin başlanması münasibətilə təbrik edib. Bildirib ki, bu gün Azərbaycan xalqı üçün tarixi günlərdən biridir və Şuşa məktəblilərinin xatirəsində daim qalacaq.

"Şuşa işğaldan azad olunduqdan sonra şəhərdə təməli qoyulan ilk binalardan biri 1 nömrəli tam orta məktəbin binası olub. Məktəb binası ən müasir standartlarla tikilərək bu gün istifadəyə verilir. Əminəm ki, Şuşa məktəbi Azərbaycan təhsil sisteminin ən öndə gedən məktəblərindən olacaq", – deyə o əlavə edib.

Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov, Əməkdar müəllim Asif Cahangirov da müəllim və şagirdləri təbrik edib, onlara uğurlar arzulayıblar.

Qeyd edək ki, 960 şagird yerlik üçmərtəbəli bina beş blokdan ibarətdir. Burada 40 sinif otağı, fizika, kimya, biologiya, texnologiya, informatika otaqları, STEAM mərkəzi, kitabxana, oxu zalı, rəssamlıq və musiqi kabinetləri, yeməkxana, akt və idman zalları var.

***



Xocalıda da 32 ildən sonra ilk Bilik Günü keçirilib. Tədbirə elm və təhsil naziri Emin Əmrullayev, Prezidentin Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında xüsusi nümayəndəsi Elçin Yusubov da qatılıb.

Tədbir iştirakçıları məktəbdə tədris prosesi ilə tanış olublar. İkimərtəbəli məktəb binası 132 şagird yerlikdir. Məktəbin bir korpusu tədrisə aiddir, digər korpus idman zalı, akt zalı və kitabxanadan ibarətdir. Təhsil ocağı bütün avadanlıqlarla təmin olunub.

***




Yenidən həyatın qayıtdığı Şərqi Zəngəzurun daha bir yaşayış məntəqəsində – Laçının Sus kəndində uzun illərdən sonra tədris ilinin ilk zəngi səslənib.

Çıxışlarda vurğulanıb ki, Böyük Qayıdış proqramı əsasında əhalinin yenidən məskunlaşdığı ərazilərdə təhsil sahəsi də xüsusi diqqətdə saxlanılır. Sus kəndində 132 şagird yerlik müasir məktəb binasının istifadəyə verilməsi də buna bariz nümunədir.

Daha sonra məktəbdə yaradılan şəraitlə tanışlıq olub.

Qeyd edək ki, ötən iki ildə Zəngilan rayonunun Ağalı kənd, Füzuli şəhər Mirzə Uluqbəy adına 1 nömrəli, Laçın şəhər 2 nömrəli tam orta məktəblərin, həmçinin Laçın rayonunun Zabux kənd, Ağdərə rayonunun Talış kənd tam orta məktəblərində tədris başlanıb.

## Üzeyir Hacıbəylinin evində "Sənət akademiyası" istedadlarının konserti

Sentyabrın 17-də Üzeyir Hacıbəylinin Bakıdakı ev-muzeyində dahi bəstəkarın doğum gününə həsr olunan konsert proqramı təqdim olundu. Konsertdə Əməkdar artist Aybəniz Haşımovanın "Sənət akademiyası"nın gənc istedadları çıxış etdilər.



Üzeyir bəyin musiqi müəllifi olduğu himnimizin möhtəşəm səslənişi ilə başlayan tədbirdə Ulu öndər Heydər Əliyevin dahi bəstəkar haqqında fikirləri yer alan videoçarx nümayiş olundu.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi İbrahim Əliyev, Xalq artisti Vamiq Məmmədəliyev, Əməkdar jurnalist Zemfira Məhərrəmli çıxış edərək Üzeyir Hacıbəylinin ömür yolundan, zəngin yaradıcılığından danışdılar.

Bildirildi ki, bəstəkarın ölməz musiqisi hər zaman bizimlədir. Azərbaycan musiqi sənətinin belə yüksək səviyyəyə çatması onun dühasının məhsuludur.

Aybəniz Haşımova çıxışında dedi: "Düz bir ildir ki, "Arşın mal alan"ın məşqlərini edirik. Nəhayət, bu gün – Üzeyir bəyin anadan olmasının 139-cu ildönümü ərəfəsində bəstəkarın evində, ocağında, ruhunun dolaşdığı bu müqəddəs məkanda onun qonağıyıq. Bu evdə hər şey əvvəlki kimidir. Təkcə özü yoxdur, əlinin toxunduğu nə varsa, hamısı danışır. Biz isə onun əllərinin gəzdiyi, dolaşdığı hər nə varsa, ona toxunaraq sanki onun təsəllisini tapırıq. Səni sevirik, Üzeyir bəy. Nə yaxşı ki, bu dünyaya Azərbaycanda gəlmisən! Nə xoş mənə ki, sənin kəşf etdiyin Sarabskinin yetirməsi, özünün də üzərində həddsiz əməyin olan Şövkət xanım Ələkbərovanın ilk üç tələbəsindən biri olmuşam. Bu tədbirin keçirilməsində dəstək olan Mədəniyyət Nazirliyinə, Üzeyir bəyin ev-muzeyinə minnətdaram. Ümidvaram ki, proqramı bəyənəcəksiniz".

Çıxışlardan sonra gənc istedadlar Üzeyir Hacıbəylinin əsərlərindən ibarət maraqlı proqram təqdim etdilər.

"Sənət akademiyası"nın yetirmələri romanslarda, "Arşın mal alan" operettasından ariyaların yer aldığı kompozisiyada həm vokal, həm də artistlik bacarıqlarını nümayiş etdirdilər.

Aybəniz Haşımovanın özünün ifasında "Leyli və Məcnun" operasından parça (Leylinin ölüm səhnəsi) da alqışlarla qarşılandı.

Sonda Aybəniz Haşımovaya Türk Ağsaqqallar İctimai Birliyinin fəxri fərmanı təqdim olundu.

**Lalə Azəri**

## Azərbaycanlı vokalçı dünyanın məşhur müsabiqəsində




Bu gün dünyada ən sanballı vokal müsabiqələrindən biri "Operaliya" ("Operalia") sənət yarışmasıdır. 1993-cü ildə təməli qoyulmuş müsabiqənin yaradıcısı və əsas bədii rəhbəri məşhur ispan tenoru Plasido Dominqodur.

Builki "Operaliya"da Azərbaycanı Bülbül adına Vokalçıların VIII Beynəlxalq Müsabiqəsinin Qran-pri mükafatçısı, Nyu-York "Metropoliten" Operasının gənc artistlər proqramının ("Lindemann Young Artist Development Program") iştirakçısı Elmina Həsən təmsil edir.

"Operaliya" yarışmasının qaydalarına görə, ev sahibliyi Parisdə olan müsabiqə hər il dünyanın bir ölkəsində keçirilir.

Sentyabrın 15-dən 21-dək Hindistanın Mumbay şəhərində təşkil olunan müsabiqə yarımfinal mərhələsindədir.

Müsabiqədə Azərbaycan kökənli daha bir iştirakçı da var. Əslən Qusar rayonundan olan Elmira Qaraxanova Rusiyanı təmsil edir.

Plasido Dominqo münsiflər heyətinin səs vermək hüququ olmayan üzvü olsa da, "Operaliya" iştirakçılarının dünya miqyasında tanınması üçün əlindən gələni əsirgəmir.

Maraqlıdır ki, "Operaliya"da iki müsabiqə proqramı var: opera proqramı və ispan milli musiqi sənəti üzrə sarsuela proqramı. Saray operasının bir növü kimi yaranmış sarsuela janr xüsusiyyətlərinə görə operettaya yaxın olub, solo və ya xor vokal nömrələrini danışıq dialoqu və rəqs ilə qovuşduran musiqili-dramatik janrdır. Elmina Həsən və Elmira Qaraxanova həm də bu proqram üzrə yarımfinala çıxıblar.

"Operaliya"da Qran-pri mükafatı nəzərdə tutulmasa da, qadın və kişi səsləri üçün iki ayrı mükafat təyin edilib.

İki I mükafat 30 min, iki II mükafat 20 min, iki III mükafat isə 10 min dollar məbləğindədir. Bundan əlavə, 10-15 min dollar məbləğində xüsusi mükafatlar da var.

Qeyd edək ki, indiyədək Azərbaycandan Dinara Əliyeva 2010-cu ildə Milanda keçirilmiş "Operaliya" müsabiqəsində III mükafata layiq görülüb.

**Gülcahan Mirməmməd**

## "Baş" və "Sehrbazlar dərəsi" səhnəyə çıxacaq

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında iki yeni tamaşa hazırlanacaq.

Teatrın mətbuat xidmətindən verilən məlumata görə, yaradıcılıq işlərinə başlanılan yeni səhnə əsərləri Xalq yazıçıları Elçinin "Baş" və Kamal Abdullanın "Sehrbazlar dərəsi" romanları əsasında ərsəyə gələcək.

"Baş" tamaşasının səhnələşdirmə və quruluş müəllifi Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadədir. Quruluşçu rəssam Əməkdar mədəniyyət işçisi İlham Elxanoğlu, geyim üzrə rəssamı Vüsal Rəhimov, bəstəkarı Azər Hacıəsgərli, rejissor assistentləri Ceyran Başaran və Nərmin Həsənovadır.

"Sehrbazlar dərəsi"nin quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Bəhram Osmanov, rəssamı Gennadi Skaramoxov, bəstəkarı Xalq artisti Siyavuş Kərimi, səhnə hərəkəti və plastika üzrə mütəxəssisi Bəhruz Əhmədli, işıq üzrə rəssamı Rafael Həsənov, rejissor assistenti Ceyran Başarandır.




## Niderland ölkəmizə və regiondakı vəziyyətə qərəzli yanaşma nümayiş etdirir

### Azərbaycan öz torpağını necə ələ keçirə bilər?




Təəssüf ki, Niderland tərəfi növbəti dəfə Azərbaycana və postmünaqişə dövründə regiondakı mövcud vəziyyətə münasibətdə qərəzli yanaşma nümayiş etdirir.

Bu sözləri Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Niderland Krallığı tərəfindən sentyabrın 13-də dərc olunmuş hökumət proqramının "Beynəlxalq təhlükəsizlik" bölməsində yer alan iddialarla bağlı yerli medianın sualına cavabında bildirib.

Mətbuat katibi deyib: "Əvvəla, bu ölkənin Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunmasını "Dağlıq Qarabağın ələ keçirilməsi" kimi qeyd etməsi qəbuledilməzdir. Qarabağ bölgəsi hər zaman ölkəmizin ayrılmaz hissəsi olub və 30 ilə yaxın Ermənistan tərəfindən işğal altında idi. Niderlandın Ermənistanın bu qanunsuz hərəkətlərinə göz yumması təəssüf doğurur. Azərbaycanın bu ərazilərin azad edilməsi ilə bağlı tədbirləri beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan, habelə bu və ya digər şəkildə yanlış dəyərləndirilə bilinməyəcək qədər ölkəmizin suveren hüququ olub.

Bununla yanaşı, biz Azərbaycanın Qarabağ bölgəsinin qondarma "Dağlıq Qarabağ" şəklində yanlış adlandırılmasını qətiyyətlə rədd edirik. Bu, Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının daha bir bariz təzahürüdür. Respublikamızda "Dağlıq Qarabağ" adlı inzibati və ya coğrafi vahid olmadığını, habelə hər bir dövlət və təşkilatın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərində ölkəmizin müvafiq orqanları tərəfindən standartlaşdırılmış və Birləşmiş Millətlər Təşkilatının Coğrafi Adlar üzrə Ekspertlər Qrupu çərçivəsində qəbul edilmiş coğrafi adlara istinad etməli olduğunu bir daha təkrarlayırıq".

XİN sözçüsü Niderland tərəfini Azərbaycanla ikitərəfli münasibətləri daha da sarsıdan, regionun beynəlxalq hüququn norma və prinsiplərinə hörmət əsasında gələcək inkişafına mane olan bu cür bəyanatlara son qoymağa çağırıb.

# “Azərbaycanda hər bir mədəni sərvət dövlətin himayəsi altındadır”

## Mədəniyyət naziri Sankt-Peterburq Forumunda çıxış edib

Xəbər verdiyimiz kimi, 11–14 sentyabr tarixlərində Rusiyanın Sankt-Peterburq şəhərində “XXI əsrin mədəniyyəti: suverenlik, yoxsa qlobalizm?” mövzusunda X Beynəlxalq Birləşmiş Mədəniyyətlər Forumu keçirilib.

Forumda mədəniyyət naziri Adil Kərimlinin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti də iştirak edib.

Sentyabrın 13-də Sankt-Peterburq Forumunun nümayəndə heyətləri rəhbərlərinin görüşü keçirilib.

Nazir Adil Kərimli görüşdə “Beynəlxalq mədəni əməkdaşlığın perspektivləri” mövzusunda çıxış edib. Bildirilib ki, çoxmillətli ölkə olan Azərbaycan zəngin tarixi-mədəni irsə malikdir. Azərbaycanda hər bir mədəni sərvət dövlətin himayəsi altındadır: “Prezident İlham Əliyevin liderliyində həyata keçirilən dövlət siyasəti dini və etnik mənsubiyyətindən asılı olmayaraq bütün mədəni dəyərlərin qorunub saxlanılmasına və təbliğinə yönəlib. Hər bir mədəni sərvət mühafizə edilməklə yanaşı, beynəlxalq aləmdə davamlı şəkildə təbliğ olunur”.




Nazir həmçinin qlobal iqlim dəyişikliyi şəraitində sıx beynəlxalq əməkdaşlığa və mədəniyyət sahəsində innovativ həllərdən istifadəyə ehtiyac olduğunu vurğulayıb. Qeyd olunub ki, bu ilin noyabr ayında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası (COP29) gedişində mədəniyyət nazirlərinin görüşü təşkil ediləcək. Görüşdə iqlim dəyişikliyinin mədəni irsə təsiri, habelə ətraf mühitin qorunmasında mədəniyyətin rolu məsələləri ilə bağlı müzakirələr aparılacaq.

Rusiya Federasiyasının mədəniyyət naziri Olqa Lyubimova isə çıxışında xarici ölkələrlə mədəniyyət mübadiləsinə töhfə verən festivalların davamlı keçirilməsinin və təbliğinin vacibliyini qeyd edib.

# “Mir Cəlal. Nizami Gəncəvi dünyası” kitabının təqdimatı



Görkəmli yazıçı, ədəbiyyatşünas və pedaqoq Mir Cəlalın İçərişəhərdəki ev-muzeyi – “Ədibin Evi” və Türk Mədəniyyəti və İrsi Fondunun (TMİF) ortaq layihəsi olan nəşr işıq üzü görüb.

TMİF-in Bakıdakı mənzil-qərargahında “Mir Cəlal. Nizami Gəncəvi dünyası” kitabının təqdimatı keçirilib. Mir Cəlalın Nizami Gəncəvinin əsərləri haqqında məqalələrinin toplandığı kitab “Türk dünyasının görkəmli şəxsiyyətləri” seriya nəşrlərinin bir hissəsidir. Bu seriyadan ilk nəşr dahi şair Məhəmməd Füzulinin 530 illiyinə həsr olunan “Heydər Əliyev və Məhəmməd Füzuli” kitabıdır.

Təqdimat mərasimində çıxış edən “Ədibin Evi”nin icraçı direktoru Şəfəq Mehrəliyeva vurğulayıb ki, Nizami Türk dünyası ədəbiyyatının sütun imzalarındandır. Onun irsi yarandığı gündən tərənnüm etdiyi bəşəri dəyərlərlə Türk dünyasında nümunə, ilham mənbəyinə çevrilib. Nizaminin əsərlərində yunan, hind və dünyanın digər xalqlarının tarixinə və fəlsəfəsinə yer verildiyi qədər qədim oğuz-qıpçaq ənənələri ilə bağlı atalar sözləri və məsəllərdə istifadə edilib. Belə bir vəhdətlə Nizami bizə XII əsrdən bu günə müasir azərbaycanlının və azərbaycançılığın simasını cızır.

TMİF-in prezidenti Aktotı Raimkulova Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü, Qazaxıstan, Qırğız və Türkiyə respublikalarının dövlət başçılarının dəstəyi ilə yaradılan qurumun bu günə qədər türk mədəniyyətinin və irsinin dünyada tanıdılması istiqamətində bir sıra layihələrə imza atdığını deyib.

Bildirib ki, TMİF, “Türk dünyasının görkəmli şəxsiyyətləri” seriyası ilə yanaşı, “Türk dünyasının ədəbi inciləri” və “Türk dünyasının elmi inciləri” adlı kitab seriyası da nəşr edir.

“İnanırıq ki, bu nəşr kitabsevərlər tərəfindən rəğbətlə qarşılanacaq və Azərbaycan oxucularında həm dahi Nizami Gəncəvinin bədii irsinin dərindən öyrənilməsi, həm də görkəmli alim, professor, elm xadimi, yazıçı Mir Cəlalın elmi-bədii yaradıcılığına olan böyük marağı daha da artıracaq”, – deyə Aktotı Raimkulova əlavə edib.

Bakı Dövlət Universitetinin filologiya üzrə professoru Təhsin Mütəllimov, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru Rafael Hüseynov və digər çıxış edənlər Nizami Gəncəvinin mənəvi dünyasının Azərbaycan ədəbiyyatında yaratdığı izlərin Mir Cəlal yaradıcılığında dərindən araşdırıldığını və gələcək nəsillər üçün ədədi miras kimi qalacağını qeyd ediblər.



Mədəniyyət nazirinin müavini Səadət Yusifova çıxışında belə layihələrin Türk dünyasının ədəbiyyatına, mədəniyyətinə böyük töhfə verdiyini vurğulayıb.

Mir Cəlalın oğlu, ADA Universitetinin rektoru Hafiz Paşayev Türk dünyası ədəbi şəxsiyyətlərinin yaradıcılığının tanıdılmasının əhəmiyyətini vurğulayıb və Türk Mədəniyyəti və İrsi Fonduna fəaliyyətində uğurlar arzulayıb.

Tədbirin bədii hissəsində Akademik Opera və Balet Teatrının aparıcı solisti, Əməkdar artist Ramil Qasımov Nizaminin qəzəllərinə bəstələnmiş ariyaları ifa edib.

Mərasimin sonunda Lənkəranın “Yaşıl çay” fermer təsərrüfatında yetişdirilən çay sortlarından yeni “Turan” kolleksiyasının ilk nümunəsi TMİF-in prezidenti Aktotı Raimkulovaya təqdim olunub.

# Polad Bülbüloğlu Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunda fəaliyyətini başa vurub

## “Çox istərdim ki, illər ərzində görülən və inkişaf etdirilən işlər itirilməsin”

Sankt-Peterburqda 11–14 sentyabr tarixlərində keçirilən X Beynəlxalq Birləşmiş Mədəniyyətlər Forumu çərçivəsində mədəni əməkdaşlığın müxtəlif sahələrini, aktual mövzuları əhatə edən 10 plenar sessiya, eləcə də tematik toplantılar – dəyirmi masalar, təqdimatlar və s. təşkil olunub.

Forumun yekun sessiyasında Rusiya Federasiyası Hökuməti sədrinin müavini, tədbirin təşkilat komitəsinin rəhbəri Tatyana Qolikova çıxış edib. O qeyd edib ki, forum müxtəlif ölkələrin nümayəndələrini cəlb edən mühüm hadisəyə çevrilib, bu tədbirə gələn insanları ənənəvi dəyərlərə əsaslanan inkişaf və əməkdaşlıq arzusu birləşdirir. Forum mədəniyyətlərarası mübadilə və qlobal mövzularla bağlı əsas məsələlərin müzakirəsi üçün platforma yaradır.

Tatyana Qolikova çıxışını bütün iştirakçılara minnətdarlıq sözləri ilə yekunlaşdırıb.

Yekun sessiyada Azərbaycanın Rusiyadakı səfiri, MDB Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu idarə heyətinin sədri Polad Bülbüloğlu da çıxış edib. O diqqətə çatdırıb ki, mədəniyyət naziri Adil Kərimlinin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti forumda iştirak edib, səmərəli görüşlər keçirilib.

Rusiya paytaxtında diplomatik fəaliyyətini başa vurmaq üzrə olan və bundan sonrakı fəaliyyətini Milli Məclisdə davam etdirməyə hazırlaşan Polad Bülbüloğlu 14 ilə yaxın rəhbəri olduğu MDB Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu ilə bağlı fikir və arzularını da bölüşüb.

Fondun genişləndirilməsi və müxtəlif ölkələrdən nümayəndələrin dəvət olunmasını təklif edən Polad Bülbüloğlu deyib: “Çox istərdim ki, illər ərzində görülən və inkişaf etdirilən işlər itirilməsin. Fondun funksiyalarına yenidən baxmaq, onu genişləndirmək, təkcə MDB deyil, digər ölkələri də daxil etmək olar. Çünki indi dünya daha genişdir”.

Tatyana Qolikova təklifi dəstəkləyib, Polad Bülbüloğluna Azərbaycanın Rusiya Federasiyasındakı səfiri vəzifəsində səmərəli fəaliyyətinə görə təşəkkür edib, ona uğurlar arzulayıb.

Qeyd edək ki, MDB-yə üzv dövlətlərin Humanitar Əməkdaşlıq Fondu 2006-cı ildə yaradılıb. Azərbaycan Respublikası Fondun müqaviləsinə 2008-ci ildə qoşulub.

Fondun idarə heyətinin ilk sədri Qazaxıstanın təhsil və elm naziri J.Tuymebayev olub (2007-2010). 2010-cu ildən idarə heyətinə Azərbaycanın Rusiya Federasiyasındakı səfiri Polad Bülbüloğlu rəhbərlik edib.



MDB Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun idarə heyətinə MDB ölkələrinin hərəsindən bir nümayəndə daxildir.

***

Onu da qeyd edək ki, Sankt-Peterburq Beynəlxalq Birləşmiş Mədəniyyət Forumunun son günü Polad Bülbüloğluna Ermitaj Mükafatı da təqdim olunub. Mükafat Sankt-Peterburq Beynəlxalq Birləşmiş Mədəniyyətlər Forumunun təşkilat komitəsi və Dövlət Ermitajı tərəfindən 2023-cü ildə təsis edilib. Mükafat hər il bir rusiyalı və bir əcnəbi mədəniyyət xadiminə verilir.

Mükafatı laureatlara RF Baş nazirinin müavini Tatyana Qolikova təqdim edib.

Mərasimdə çıxış edən Polad Bülbüloğlu Ermitaj muzeyinə hələ uşaq ikən gəldiyini xatırladıb. Deyib ki, Azərbaycan xalqı II Dünya müharibəsi illərində Sankt-Peterburqda, məhz Ermitaj binasında dahi Nizaminin 800 illik yubileyinin qeyd olunduğunu heç zaman unutmur. Bu gün də mədəniyyət xalqları və ölkələri birləşdirən mühüm amildir.

Rusiya Prezidentinin beynəlxalq mədəni əlaqələr üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy çıxışında Polad Bülbüloğlunun mədəniyyətlərarası əlaqələrin möhkəmlənməsinə töhfəsini yüksək qiymətləndirib.

Sankt-Peterburqun qubernatoru Aleksandr Beqlov vurğulayıb ki, Polad Bülbüloğlu Azərbaycan mədəniyyətini təkcə Rusiyada deyil, dünyada tanıtmış böyük sənətkardır. Qubernator Polad Bülbüloğlunu təbrik edərək ona uğurlar arzulayıb.

Qeyd edək ki, bu il Ermitaj Mükafatına Rusiyanın Xalq artisti, xoreoqraf Boris Eyfman da layiq görülüb.

# MDB-nin Mədəni Əməkdaşlıq üzrə Şurasının iclası keçirilib

Sentyabrın 14-də X Sankt-Peterburq Beynəlxalq Birləşmiş Mədəniyyət Forumu çərçivəsində MDB iştirakçısı olan dövlətlərin Mədəni Əməkdaşlıq üzrə Şurasının növbəti iclası keçirilib.

Tədbirdə Azərbaycan Respublikası mədəniyyət nazirinin müşaviri Oleq Əmirbəyov çıxış edib. O, MDB ölkələrində mədəni inteqrasiyadan, Azərbaycanın bu prosesdə iştirakından söz açıb.

Azərbaycanın Laçın şəhərinin 2025-ci il üçün “MDB-nin mədəniyyət paytaxtı” elan edilməsi qərarını yüksək qiymətləndirən Oleq Əmirbəyov gələn il ölkəmizdə keçiriləcək III MDB Oyunlarını da bu prosesdə əhəmiyyətli hadisə olacağını deyib: “İdman yarışları ilə yanaşı, biz idman və incəsənətin bir-birinə necə ahəngdar şəkildə qarışdığını, millətlərarası dialoqun yeni aspektlərini yarada biləcəyini nümayiş etdirəcək geniş mədəni proqram hazırlayırıq”.



Nazirin müşaviri MDB-yə üzv ölkələrdə keçirilən qarşılıqlı mədəniyyət günlərinin də mədəni inteqrasiyaya əhəmiyyətli töhfələr verdiyini diqqətə çatdırıb. O, eyni zamanda Bakıda keçirilən, qonşu ölkələrdən də bu sektorun nümayəndələrini bir araya gətirən yaradıcı sənayelər festivalı – “Yaradıcılıq Həftəsi” haqqında məlumat verib. Qeyd olunub ki, bu tədbir mədəniyyət və yaradıcı sənayelər (MYS) sahəsində fikir və təcrübə mübadiləsi platformasına çevrilib.

Qeyd olunub ki, mədəni əməkdaşlığın üfüqlərini genişləndirməyə xidmət edən beynəlxalq incəsənət layihələrinin davamlı keçirilməsi vacib əhəmiyyət daşıyır.

# Milli İncəsənət Muzeyinin Rusiya muzeyləri ilə əməkdaşlığı

## Üç memorandum imzalanıb




Rusiyanın Sankt-Peterburq şəhərində keçirilən X Beynəlxalq Birləşmiş Mədəniyyətlər Forumunda Azərbaycan nümayəndə heyətinin tərkibində Milli İncəsənət Muzeyinin direktoru sənətşünaslıq üzrə fəlsəfə doktoru Şirin Məlikova da iştirak edib.

Forumun “Tarixi binalarda muzeylər” adlı sessiyasında çıxış edən Şirin Məlikova bildirib ki, tarixi tikililərdə yerləşən muzeylər mədəni irsin qorunmasında mühüm rol oynayır. Bu cür unikal məkanlar yalnız eksponatların saxlanıldığı yerlər deyil, eyni zamanda memarlıq abidəsi kimi ziyarətçilərdə təkrarolunmaz təəssürat oyadır.

Forum çərçivəsində Azərbaycan Milli İncəsənət Muzeyi ilə Rusiya Dövlət Ermitajı arasında qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında memorandum imzalanıb.

Memorandumu Şirin Məlikova və Dövlət Ermitajının elmi işlər üzrə baş direktor müavini Georgi Vilinbaxov imzalayıblar. Sənəddə muzey işi və mədəni-tarixi irs obyektlərinin mühafizəsi sahəsində birgə əməkdaşlıq, Ermitajın AMİM-in Qərbi Avropa incəsənətinə aid eksponatlarının atribusiyasına yardım göstərməsi, bərpa məsələləri üzrə məsləhətləşmələr, mütəxəssislərin təcrübə mübadiləsi, eləcə də Azərbaycanda “Ermitaj günləri”nin keçirilməsi və digər məsələlər öz əksini tapıb.

Beynəlxalq tədbir çərçivəsində, həmçinin Milli İncəsənət Muzeyinin Rusiya Dövlət Şərq Xalqları İncəsənəti Muzeyi və Rəssamlıq Akademiyasının Muzeyi (Sankt-Peterburq) ilə də əməkdaşlığına dair memorandumlar imzalanıb.

Memorandumların məqsədi muzeylər arasında qarşılıqlı əlaqəni genişləndirmək, bərpa, arxeoloji tədqiqatlar və muzey işi sahəsində təcrübə mübadiləsi aparmaqdır. Qeyd edilən tərəfdaşlıqlar incəsənət əsərlərinin tədqiqi və nümayişi üçün yeni imkanlar açacaq, həmçinin geniş auditoriyanın muzeylərin unikal kolleksiyalarına əlçatanlığını təmin edəcək.

# “Eşq olsun sənətkara”

## Vurğunun ocağında musiqi axşamı



Sentyabrın 17-də Səməd Vurğunun Ev-Muzeyində Milli Musiqi Gününə (18 sentyabr) həsr olunmuş “Eşq olsun sənətkara” adlı tədbir keçirildi.

Muzeyin direktoru pianoçu, beynəlxalq müsabiqələr laureatı Vurğun Vəkilov Azərbaycan musiqi mədəniyyəti tarixində dahi bəstəkar, pedaqoq, ictimai xadim Üzeyir Hacıbəylinin (1885-1948) rolundan söz açdı. Dedi ki, musiqimizin inkişafında əvəzsiz xidmətlər göstərən bəstəkarın miras qoyduğu ənənələr bu gün də yaşadılır.

Daha sonra söz musiqiyə verildi. Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin şagirdləri Hazar Teymurzadə, Ömər Zeynalov, Xalidə Bayramova, Əli Fərəcov, Ayşən Uğurluyeva, Aylin Mahmudova və Rəmzi İbişov çıxış etdilər.

Proqramda Ü.Hacıbəylinin “Koroğlu” operasından rəqs, A.Gərayın “Vətən nəğməsi”, F.Əmirovun “Kor ərəbin mahnısı”, S.Ələsgərovun “Vətənimdir”, C.Zülfüqarovun “Fantaziya” (“Ağ alma”), T.Quliyevin “Qaytağı” və H.Xanməmmədovun “Lirik mahnı” əsərləri səsləndirildi. Gənclərin böyük şövqlə ifa etdikləri əsərlər alqışlarla qarşılandı.

Tədbirdən sonra qonaqlar Səməd Vurğunun ocağı ilə tanış oldular.

Xatırladaq ki, Ümummilli lider Heydər Əliyevin 1995-ci ildə imzaladığı fərmanla Üzeyir bəyin dünyaya göz açdığı 18 sentyabr tarixi ölkəmizdə Milli Musiqi Günü kimi qeyd olunur.

**Nurəddin**

## Meksikanın Müstəqillik Günü Şuşada qeyd olunub

Sentyabrın 14-də Şuşa şəhərində Meksikanın Müstəqillik Günü şərəfinə mərasim keçirilib.




Meksika səfirliyindən verilən xəbərə görə, mərasimdə Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov və Meksikanın Azərbaycandakı səfiri Viktoriya Romero çıxış ediblər.

Səfir qeyd edib ki, Meksika ilə Azərbaycan arasında məsafənin uzaqlığına baxmayaraq, iki ölkə arasında bir sıra oxşarlıqlar var: hər iki ölkə əlverişli coğrafi yerləşib, təbii sərvətlərə, qədim və zəngin mədəni irsə malikdir, eyni zamanda mədəniyyətlər və sivilizasiyalar arasında əlaqələrə töhfə verir. Diplomat xalqlarımızın qarşılıqlı yaxınlaşmasında mədəniyyət və idman diplomatiyasının rolunu önə çəkib.

Mərasimdə Meksika və Azərbaycan mədəniyyətlərinin sintezi formatında musiqi əsərləri təqdim edilib. Mədəni proqram Şuşa sakinləri tərəfindən isti qarşılanıb.

Meksika səfiri səfər zamanı Şuşanın görməli yerləri ilə də tanış olub.

## Şəhidlər ölməz, Vətən bölünməz

Astara rayon Heydər Əliyev Mərkəzində "Şəhidlər ölməz, Vətən bölünməz" adlı tədbir təşkil edilib.



Tədbir şəhidlər Elbrus Kamil oğlu Məlikov, Azad Səhhətulla oğlu İbrahimov, İsmayıl Rüstəm oğlu Əliyev, Elşən Hacıağa oğlu Məmmədov, Nizami Şamuyar oğlu Abdullyev, Bakir Rəzzaq oğlu Qasımov və Rafiq Sahibulla oğlu Məmmədovun doğum və anım günlərinə həsr olunub.

Heydər Əliyev Mərkəzinin direktoru Kübra Səmədova, mərkəzin əməkdaşı Elza Kazımova, Astara Dövlət Rəsm Qalereyasının direktoru Naibə Mustafayeva, rayon Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşı Rəna Əsgərova, MKS-nin əməkdaşı Aygül İmaməliyeva tariximizə şəhidlərin canı-qanı bahasına yazılan şanlı Zəfər salnaməsindən söz açıblar.

Şəhidlərin həyatı və hərbi xidmətləri haqqında məlumat verilib, fotoşəkillər nümayiş olunub. Yekunda tədbir iştirakçıları qalereyanın rəsm dərnəyi üzvlərinin əl işlərindən ibarət sərgiyə baxıblar.

**Zəfər Orucoğlu**

## Gəncədə "Nizami günləri" rəngarəng tədbirlərlə yadda qalıb

*əvvəli səh. 1-də*

Layihənin daha bir tədbiri "Nizami klassik musiqidə" adlı gecə olub. Gəncə Dövlət Filarmoniyası Kamera orkestrinin (dirijor Xalq artisti Rafael Bayramov) müşayiəti ilə Xalq artisti Sevinc İbrahimova, Əməkdar artist Tural Abdullayev, solistlər Rüstəm Cəfərov, Elmir Pişnamazzadə, Samir Məmmədov, Vasif Bayramov, Zəminə Mustafayeva dahi şairin sözlərinə bəstələnmiş əsərləri ifa ediblər.





Üzeyir Hacıbəylinin "Arazbarı" zərbi muğamı ilə başlayan gecədə bəstəkarın "Sənsiz", "Sevgili canan", Fikrət Əmirovun "Gülüm", Cahangir Cahangirovun "Gül camalın", Tofiq Quliyevin "Gözüm aydın, gözümə...", Süleyman Ələsgərovun "Sərvi xuramanım mənim" əsərləri ifa olunub. Qiraətçilər Lalə Həsəncan və Məhəmməd Hacıyev Nizaminin qəzəllərini səsləndiriblər.

***

"Nizami muğam dünyası" adlı konsert proqramında Beynəlxalq Muğam Mərkəzinin solistləri – xanəndələr Sevinc Sarıyeva, Elgiz Əliyev və Nisbət Sədrayeva tarda Rəşad İbrahimov, kamançada Təbriz Yusubovun müşayiəti ilə "Dumanlı Təbriz" tamaşasından "Qönçələbin mahnısı", "Şikəsteyi-fars" təsnifi, "Gəncədən fayton gəlir" mahnısını ifa ediblər.

Gecədə həmçinin Göygöl Dövlət Mahnı və Rəqs Ansamblının müşayiəti, Sahil Quliyevin bədii rəhbərliyi ilə Şirxan Cahangirov və Azər Verdiyev "Küçələrə su səpmişəm", Ələkbər Tağıyevin "Sənə qurban" mahnılarını oxuyublar.

***

Sentyabrın 15-də Nizami məqbərəsinin önündə layihənin bağlanış mərasimi keçirilib. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı və Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının təqdimatında Xalq artisti Əfrasiyab Bədəlbəylinin "Nizami" operası nümayiş etdirilib.

Əvvəlcə tamaşanın bədii rəhbəri, Xalq artisti, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru Fərhad Bədəlbəyli çıxış edərək "Nizami günləri" layihəsini yüksək qiymətləndirib, layihənin nəinki Gəncə, ölkəmiz üçün mədəni hadisəyə çevrildiyini vurğulayıb.

Açıq havada nümayiş olunan tamaşada Əməkdar artistlər Ramil Qasımov (Nizami), İnarə Babayeva (Rəna), Tural Ağasıyev (Lal), solistlər Mahir Tağızadə (Atabəy), Taleh Yahyayev (Qızıl Arslan), Elmir Rüstəmov (Sərkərdə) çıxış ediblər.

Tamaşanın quruluşçu rejissoru Əməkdar artist İnarə Babayeva, dirijoru Əməkdar artist Əyyub Quliyev, xormeysteri Əməkdar incəsənət xadimi Sevil Hacıyeva, quruluşçu baletmeysteri Əməkdar artist Yuri Lobaçevdir.

Beş gün davam edən "Nizami günləri" layihəsi atəşfəşanlıqla yekunlaşıb.

## Arif Məlikovun doğum günündə sevilən nəğmələri səsləndirilib

Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında sentyabrın 13-də Azərbaycanın dünyaşöhrətli bəstəkarı Arif Məlikovun (1933–2019) mahnılarından ibarət konsert proqramı keçirilib.



Konsertdə Arif Məlikovun tələbəsi, bəstəkar Pikə Axundova, tanınmış pianoçu, beynəlxalq müsabiqələr laureatı Ülviyyə Kazımova çıxış ediblər.

Gəncə Dövlət Filarmoniyasının Kamera orkestri və Estrada ansamblının müşayiəti ilə solistlər – Əməkdar mədəniyyət işçisi Mehparə Cəfərova, Samir Məmmədov, Əli Məmmədov, Xəyal Əliyev və Xəyal Məmmədovun ifasında bəstəkarın "Güllər", "Gözlərinin aynası", "Yaşatdın məni", "Gəl bizim dağlara", "Mən qartalam", "Günəş ürəkli", "Çıx yaşıl düzə" mahnıları səsləndirilib.

## Yerlərdə mədəni həyat










Quba-Xaçmaz Regional Mədəniyyət İdarəsinin (RMİ) təşkilatçılığı ilə Quba rayon MKS-nin Mərkəzi Kitabxanası tərəfindən Əməkdar incəsənət xadimi, yazıçı, jurnalist Əfqanın (Əfqan Əsgərov; 1929–2022) 95 illik yubileyi ilə əlaqədar "Şərəfli yazıçı ömrü" adlı tədbir keçirilib. Çıxışlarda müəllifin yaradıcılığından söz açılıb, "Gülyanaq", "Katib", "Həsrətdə bir vüsaldır", "Qartal əfsanəsi", "Dədə Bəhmən", "Məhəbbət ətirli qərənfilim", "Dünya gözəlliyindir", "O, daş deyildir" və başqa əsərlərinin oxucular tərəfindən maraqla qarşılandığı vurğulanıb.

***

Quba Tarix-Diyarşünaslıq Muzeyində Birinci Qarabağ müharibəsi şəhidi Bəxtiyar Kərimova həsr olunmuş tədbir təşkil edilib. Çıxış edənlər şəhidin döyüş yolundan danışıb, bu cür tədbirlərin gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyəsində əhəmiyyətini diqqətə çatdırıblar. Bəxtiyar Kərimov haqqında videoçarx nümayiş etdirilib, şəhidə həsr edilmiş sərgiyə baxış olub.

***

Biləsuvar rayonunda "Təmiz Bolqarçay" aksiyası həyata keçirilib. Biləsuvar rayon Heydər Əliyev Mərkəzi və Gənclərin İnkişaf və Karyera Mərkəzinin regional nümayəndəliyinin təşkilatçılığı ilə reallaşan aksiya zamanı Bolqarçay və ətraf ərazilər məişət tullantılarından təmizlənib.



***

Şirvan şəhər Mərkəzi Kitabxanasında yerli yazarlarla görüş olub. Yerli müəlliflərin şəhər sakinlərinə tanıdılması, oxucuların asudə vaxtının səmərəli təşkili məqsədilə keçirilən görüşdə şairlər yaradıcılığı və yeni kitabları haqqında məlumat veriblər. Oxucuların sualları cavablandırılıb.

***

Ağcabədi rayon MKS-nin Mərkəzi Kitabxanasının əməkdaşları "Sülh aylığı" çərçivəsində Ağcabədi şəhər 2 saylı körpələr evi-uşaq bağçasında "Sülhün carçıları – gələcəyimiz olan uşaqlardır" başlıqlı sərgi-tədbir təşkil ediblər. Sonda kitabxana əməkdaşları uşaqlarla birlikdə rəqs ediblər.

***



Masallı rayon Mərkəzi Kitabxanasında 15 sentyabr – Bilik Günü münasibətilə tədbir keçirilib. Çıxışlarda Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan təhsil siyasəti, bu sahəyə diqqət və qayğı, o cümlədən Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrdən danışılıb.

***

Şabran rayon Heydər Əliyev Mərkəzində Quba-Xaçmaz Regional Gənclər və İdman İdarəsinin Şabran rayonu üzrə gənclər və idman sektoru ilə birgə gənclər arasında "Nə? Harada? Nə zaman?" adlı intellektual oyunu keçirilib. 5 komandanın qatıldığı yarışın sonunda "Termidor" komandası I, "Maqnat" komandası II, "USM-1" komandası isə III yeri qazanıb. Qalib komandalar təltif edilib.

***

Mirzə Fətəli Axundzadə adına Şəki şəhər Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən Narınqala Folklor evi, Vaqif İbrahim adına Folklor evi və Məmməd Sadıq Əliyev adına Diyarşünaslıq klubunun birgə təşkilatçılığı ilə "Tanrının möcüzəsi – ana təbiət" mövzusunda tədbir keçirilib. Tədbirdə ekoloji tarazlığın pozulması, qlobal istiləşmə və yaşıl dünya mövzusunda çıxışlar olub, 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

***

Şirvan şəhərində "Sülh naminə həmrəy olaq" adlı sərgi təşkil edilib. Şirvan şəhər Heydər Əliyev Mərkəzi və Şirvan Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili" və 21 avqust – 21 sentyabr "Sülh aylığı" çərçivəsində keçirilən tədbirdə qalereyanın dərnək üzvlərinin əl işləri nümayiş olunub. Rəsm əsərlərində sülh mədəniyyətinin, sülh və ədalət prinsiplərinin təbliğinə geniş yer ayrılıb.

**Hazırladı: N.Məmmədli**

## Türk dünyasının arxeoloq və alimləri Şuşada bir araya gəliblər



Türk Akademiyası və AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun birgə təşkilatçılığı ilə sentyabrın 14-dən 18-dək Şuşa şəhərində Türk Dünyası Tədqiqat İnstitutları və Arxeologiya Mərkəzləri Birliyinin (The Association of Research Institutes and Centers of Archaeology of the Turkic World – ARICA) ilk rəsmi toplantısı keçirilib.

Tədbirdə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Monqolustan, Macarıstan, Özbəkistan (o cümlədən Qaraqalpaq Muxtar Respublikası) və Tatarıstandan (Rusiya Federasiyası) elmi-tədqiqat mərkəzlərinin nümayəndələri iştirak ediblər.

Türk Akademiyasının prezidenti Şahin Mustafayev tədbirin Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilməsinin bütün Türk dünyası üçün simvolik olduğunu vurğulayıb. Bildirib ki, tədbirin əsas məqsədi Türk dünyasının arxeologiya mərkəzlərinin, institutlarının əməkdaşlığını gücləndirməkdir. Bu sahədə müştərək arxeoloji qazıntıların, müxtəlif tədbirlərin, o cümlədən müştərək elmi araşdırmaların aparılması planlaşdırılır.

Arxeologiya və Antropologiya İnstitutunun direktoru Fərhad Quliyev işğaldan azad edilmiş Azərbaycan torpaqlarında aparılan bərpa və quruculuq işləri kontekstində arxeoloqların üzərinə düşən vəzifələrdən danışıb. O, gələn ildən etibarən türk xalqlarının arxeoloji irsinin öyrənilməsi yönündə böyük layihənin icrasına başlanılacağını diqqətə çatdırıb.

Tədbirin "Türk-islam irsinin tədqiqatları" və "Türk xalqlarının Avrasiyada mədəni təsirləri" mövzuları üzrə sessiyalarında təqdimatlar olub.

Sonda ARICA-nın Şuşa toplantısının qətnaməsi qəbul olunub. Qətnamədə Türk dünyasının arxeoloji irsinin araşdırılmasında qarşılıqlı əməkdaşlığın istiqamətləri öz əksini tapıb.

Tədbir iştirakçıları işğal dövründə erməni işğalçılarının törətdiyi vandalizm aktlarını sübut edən qəbiristanlıq və məscidlərin, yaşayış məskənlərinin dağıntıları, azad edilmiş ərazilərdəki bərpa-quruculuq işləri ilə tanış olub, həmçinin arxeoloji qazıntı aparılan ərazilərə baş çəkiblər.

Qeyd edək ki, 2023-cü ilin 9-10 noyabrında Özbəkistanın Səmərqənd şəhərində keçirilən Türk Dünyası Arxeologiya İnstitutu və Mərkəzləri Rəhbərlərinin işçi toplantısında bu sahədə müvafiq qurumun yaradılması razılaşdırılıb və ARICA təsis olunub. ARICA-nın məqsədi Türk dünyasının arxeologiya mərkəzlərinin, institutlarının əməkdaşlığını təşviq etmək, birgə tədqiqatlar, ekspedisiyalar həyata keçirmək, mütəxəssislər hazırlamaq və elmi ədəbiyyat nəşr etməkdir.

# Görkəmli pianoçu, pedaqoq Elmira Səfərovanın məzarı ziyarət olunub

Sentyabrın 16-da görkəmli pianoçu, pedaqoq, Əməkdar incəsənət xadimi, professor Elmira Səfərovanın (1934–1997) anadan olmasının 90-cı ildönümü tamam oldu.

Bu münasibətlə Mədəniyyət Nazirliyinin rəsmiləri, mədəniyyət xadimləri, sənətkarın yaxınları II Fəxri xiyabana gələrək Elmira Səfərovanın xatirəsini yad etdilər, məzarı üzərinə gül dəstələri qoydular.

Mədəniyyət nazirinin müavini Murad Hüseynov pianoçunun yaradıcılığından söz açdı, onun adının musiqi tariximizdə əbədi yaşayacağını dedi: "Elmira Səfərovanın yetirmələri bu gün konsert-ifaçılıq və pedaqoji fəaliyyətləri ilə onun yolunu davam etdirirlər. Tələbələri dünyanın bir çox ölkələrində çıxış edərək Azərbaycan musiqisinin təbliğinə öz töhfələrini verirlər".



Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində fəaliyyət göstərən L. və M.Rostropoviçlər adına 21 nömrəli onbirillik Musiqi məktəbinin direktoru Məmməd Quliyev, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kafedra müdiri Əməkdar artist, professor Samirə Aşumova və başqaları çıxış edərək Elmira Səfərova ilə bağlı xatirələrini bölüşdülər.

Azərbaycan Yazıçılar Birliyinin sədri Xalq yazıçısı Anar sənətkarın ailə üzvləri adından çıxış edərək Elmira Səfərovanın xatirəsinə göstərilən ehtirama görə tədbir iştirakçılarına təşəkkürünü bildirdi.

Elmira Səfərova 16 sentyabr 1934-cü ildə məşhur mühəndis-neftçi Yusif Səfərovun ailəsində doğulub. Elmira xanım uşaqlıq dövründən musiqiyə həvəs göstərib. Bu sahədə ilk təhsilini Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki BMA) nəzdindəki musiqi məktəbində alıb. K.Səfərəliyeva, T.Qruşko, L.Yeqorova kimi görkəmli pedaqoqlardan ifaçılığın sirlərini öyrənib. 1952-ci ildə Azərbaycan Dövlət Konservatoriyasına (professor M.Brennerin sinfi) qəbul olunub. 1957-ci ildən təhsilini P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının aspiranturasında davam etdirib. Musiqi ifaçılarının Zaqafqaziya müsabiqəsində (1960) laureat adını qazanıb.

1961-ci ildən Azərbaycan Dövlət Konservatoriyasında müəllimlik fəaliyyətinə başlayan E.Səfərova respublikamızda musiqi sənətinə və fortepiano ifaçılığı üzrə peşəkar kadrların hazırlanmasına



töhfələr verib. O, sonralar məşhurlaşan və bu gün pianoçu kimi Azərbaycan musiqisini uğurla təmsil edən bir çox ifaçıların müəllimi olub.

E.Səfərova pedaqoji fəaliyyəti ilə yanaşı, konsertlərdə də solo və ansambl ifaçısı kimi çıxış edib. 1995-ci ildə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında təşkil etdiyi klassik və müasir musiqi festivalı böyük maraqla qarşılanıb.

Görkəmli pianoçu 1997-ci ildə – pedaqoji fəaliyyətinin və yaradıcılığının parlaq çağında dünyasını dəyişib.

**Nurəddin**

# "Aysedora" festivaldan qayıdıb

Azərbaycan Dövlət Akademik Musiqili Teatrının "Aysedora" monotamaşası (rus dilində) Belarus Respublikasının Brest şəhərində keçirilən 28-ci "Belaya Veja" Beynəlxalq Teatr Festivalında uğurla nümayiş olunub.

Belarus, Danimarka, Qazaxıstan, Rusiya, Tacikistan, Özbəkistan və digər ölkələrin təmsil olunduğu festivalda Musiqili Teatrın aktrisası Olqa Georgiyevanın oynadığı tamaşa alqışlarla qarşılanıb.

Rus yazıçı-dramaturqu Zinovi Saqalovun "Aysedoranın üç həyatı" pyesi əsasında hazırlanan tamaşa ötən mövsüm teatrın repertuarına daxil edilib. Məşhur amerikalı rəqqasə Aysedora Dunkan (1877–1927) haqqında tamaşanın quruluş müəllifi və bədii redaktoru teatrın baş rejissoru Cavid İmamverdiyevdir.

"Aysedora" festivalın təşkilatçıları tərəfindən laureat diplomuna layiq görülüb. Mükafat tamaşanın quruluşçu rejissoruna təqdim olunub.

Səhnə əsərinin bədii rəhbəri Əməkdar incəsənət xadimi Əliqismət Lalayev, musiqi rəhbəri Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev, quruluşçu rəssamı Əməkdar rəssam Nabat Səmədova, baletmeysteri Əməkdar artist Nigar Şahmuradova, musiqi redaktoru Nigar Süleymanovadır.

Qeyd edək ki, ötən il Akademik Musiqili Teatr bu festivalda F.Dostoyevskinin "Utancaq qız" əsərinin monotamaşası (rejissor Cənnət Səlimova, ifaçı Şövqi Hüseynov) ilə uğurla təmsil olunmuşdu.



# Əməkdar artist Rafiq İbrahimov vəfat edib

Azərbaycan mədəniyyətinə itki üz verib. Bakı Bələdiyyə Teatrının aktyoru, Əməkdar artist Rafiq İbrahimov sentyabrın 13-də, ömrünün 69-cu ilində vəfat edib.



Rafiq Əli oğlu İbrahimov 2 noyabr 1955-ci ildə Bakıda anadan olub. Orta məktəb illərində Məmmədkamal Kazımovun rəhbərlik etdiyi Xalq teatrında dərnək üzvü olub. 1978-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki ADMİU) Dram, kino aktyorluğu fakültəsini bitirib. Bir müddət institutun Tədris teatrında, Sumqayıt Dövlət Dram Teatrında fəaliyyət göstərib. Yaradıcı Fondunun "Sönməyən ulduzlar" teatrında çalışıb, dublyaj sahəsində məşğul olub. Pedaqoji fəaliyyət də göstərib, ADMİU-da səhnə danışığı fənnini tədris edib.

Aktyorun yaradıcılığının əsas hissəsi mərhum Xalq artisti Amaliya Pənahovanın yaratdığı Bakı Bələdiyyə Teatrı ilə bağlıdır. 1994-cü ildən bu teatrda çalışan Rafiq İbrahimov xarakterik obrazlar ustası olub. A.Məmmədovun "Dəli Domrul"unda Dədə Qorqud, N.Rəfibəylinin "Məhsəti"sində Şah, C.Cabbarlının "Dönüş"ündə Zaman, N.Hikmətin "Damokl qılıncı"nda Arxitektor, A.Qurbaninin "Türk sancağı"nda Məşədi Heydər və b. tamaşalarda oynadığı rollar maraqla qarşılanıb.

Kino yaradıcılığı da olan aktyor "Ağ atlı oğlan" (1995), "Hökmdarın taleyi" (2008), "Sonuncu dərviş" (2009) və s. filmlərdə çəkilib.

Rafiq İbrahimov 2002-ci ildə "Əməkdar artist" fəxri adına layiq görülüb.

Uzun sürən xəstəlikdən sonra dünyasını dəyişən Rafiq İbrahimovun xatirəsi sənət tariximizdə, onu tanıyanların yaddaşında yaşayacaq.

Allah rəhmət eləsin.



# Bakı Uşaq və Gənclər Teatrı mövsümü "Qaraca qız"la açacaq

Bakı Uşaq və Gənclər Teatrı yeni mövsümü sentyabrın 20-də müvəqqəti yerləşdiyi Qaraçuxur qəsəbəsindəki Qurban Abbasov adına Mədəniyyət sarayında açacaq.

Kollektiv Süleyman Sani Axundovun eyniadlı əsəri əsasında hazırlanmış "Qaraca qız" tamaşasını təqdim edəcək.

Tamaşanın quruluşçu rejissoru İlhamə Əhmədova, quruluşçu rəssamı Sevda Məmmədova, musiqi tərtibatçıları Rauf Hüseynov və Yusif Rüstəmovdur. Rollarda Mehman Piriyev, Niyaz Qasımov, Könül Şahbazova, Flora Hüseynova, Rauf Hüseynov, Sənan Fərzəliyev və başqaları rol alıblar.

Yaradıcı heyət hazırda "Qırmızıpapaq", "Əyriqulaq dovşan", "Xəzinələr adası", "Pəltək cücə", "Humayın yuxusu", "Fidan və Qoğal", "Ağıllı tülkü" və "Cənnətə bilet" tamaşalarının bərpa məşqlərini edir.

Qeyd edək ki, Vətən müharibəsi qəhrəmanlarına ithaf olunan "Cənnətə bilet" tamaşası isə Anım Günü (27 sentyabr) ərəfəsində, sentyabrın 26-da Sabunçu rayonundakı Bakı Gənclər Mərkəzində nümayiş olunacaq.

## Məşq gedir...

Yeni teatr mövsümündə ilk məşq reportajına şəhərin Formula 1 qovğasında getdim. Qısa yolumu uzada-uzada Dövlət Milli Gənc Tamaşaçılar Teatrına çatanda artıq məşq başlamışdı...

# Bir heç olan Feyerbax

## Və ya səhnəyə lazım olmayan aktyor

Monotamaşanın qəhrəmanı bir-iki konstruksiyalı səhnədə yüz ilin tənhalığından qaçmış adam təəssüratı bağışlayırdı. O çırpınır, danışır, var-gəl edir.

Ehmalca boş zalda yerimi alıram. Tərs kimi düz aktyorla üzüzə dayanıram. Qəhrəman da tək məni "nişan" alıb. Dolu zalda belə bir tamaşaçını nişan alıb, bütün aktı onunla oyunda icra edən aktyorlar var. Bu dəfə isə "duel"dən yayınmaq heç mümkün deyil. Monoloq atəşi başlanır.

"Bəzi rejissorlar, hətta məşq mərhələsində belə, aktyoru bilərəkdən gözləməyə məcbur edir. Aktyor gecədən səhərə qədər düşünüb tapdıqlarını göstərmək istəyir, rejissor isə onu gözləməyə məcbur edir. Aktyoru növbəti gün yenə məşqə çağırırlar, yenə ona növbə çatmır. O, yenə gözləyir. Rejissor deyir ki, onun planı dəyişib, bu gün başqa səhnə əsəri üzərində işləyəcək. Olsun, problem deyil, amma aktyoru yenə çağırırlar. Məşqlərdən azad etmirlər. O gedib gəzə bilməz! Aktyor gəlir və gözləyir, onu səhnəyə dəvət eləmirlər, o, rejissorla danışa bilməz! Düz bir həftə belə davam edir. Aktyor tamamilə özünü və özünə inamını itirir. Elə bu vaxt növbə ona çatır. Uğurlu məşqdən sonra rejissor ona deyir: "Sən möhtəşəm idin! Sənin məhz bu əsəbi, həyəcanlı halın o səhnə üçün çox vacib idi...". Əlbəttə, əgər belə nəticə əldə olunsa, deyərdim bu, təhqir, aləsalma yox, dahilikdir. Amma bu yalnız böyük sənətkarlara xas xüsusiyyətdir, sizin kimi insanlarla yaradıcı ünsiyyət qurmaqda təcrübəsi olmayanlara aid deyil. Qoy rejissor bilsin... (həyəcanla) o rolu almasam, həyatımı məhv edərəm! Özümü öldürərəm! Mən artıq Bavariyada, Düsseldorfda, hətta Boxumda olmuşam, dinləmələrdə iştirak eləmişəm...".

Son nidalardan sanki diksinirəm. O, qətiyyətlidir və bizə barmaq silkələyir....

Səhnənin sol küncündəki rejissor assistenti isə səssizcə pyesi izləyir. Əlindəki qələmi vərəqlərdə gəzdirir, nə isə qeydlər edir.

Lap Feyerbaxın incidiyi rejissor assistenti kimi...

***

Xəbər verdiyimiz kimi, hələ ötən mövsümdən teatrda alman dramaturqu Tankert Dorstun pyesi əsasında "Mən Feyerbaxam" adlı monotamaşa hazırlanır.

Aktyor taleyi, daha doğrusu, həyatda aktyor olmaqdan böyük səadəti olmayan bədbəxt insan haqqında tamaşaya elə aktyorları ən çox anlayan Xalq artisti Cənnət Səlimova quruluş verir. Tamaşanın rejissoru və ifaçısı Əməkdar artist, monotamaşaları ilə daha çox sevilən Şövqi Hüseynov, quruluşçu rəssamı Mustafa Mustafayev, musiqi tərtibatçısı Zaur Rəşidovdur.

Səhnə əsəri bizə miskin bir həkayəti, işıqlı səhnələrdən zülmətə köç edən və illər sonra yenidən içindəki işığa doğru qaçan Feyerbaxı göstərir. O, dövrünün məşhur aktyoru olub, baş rollar oynayıb, rejissorların arzuladığı ifaçı kimi illərini səhnədə keçirib. Sonra lənətlənmiş ruh onu təqib edərək dəlisi olduğu sənətdən uzaq qoyub. Yeddi il ruhi xəstəxanada yatıb. Anası da, arvadı da ölən, həyatda anasından yadigar zamanı donmuş saatından və nimdaş, rol dəftərləri ilə dolu çamadanından başqa heç nəyi qalmayıb. Bir də bütün mizan və replikalarını əzbər bildiyi rollarından başqa.





Günlərin bir günü "Mən sağalmışam, artıq özümü reabilitasiya etmişəm" deyib çox sevdiyi teatra qayıtmaq qərarına gəlib. Əslində, başqa yeri də yoxdur bu həyat səhnəsində.

O, yeddi il əvvəl teatrda itirdiyi əsl simasına qayıtmaq istəyir. Özü də bir zamanlar ona rol vermiş rejissor Lettauya şanlı bir məktub yazır. Sonra teatra gəlir. Boş, qaranlıq, kimsəsiz səhnədə onu saatlarla gözləyir. Sonra öz-özünə bir hekayət uydurur. Bu saat cənab Lettau gələcək. Hətta onu yeni rola təsdiq edəcək. Eybi yox, nə qədər ki, rejissor gəlməyib, onun assistentinə oynasın. Nə də olmasa, onlar rejissorlara yaxın adamlardır. Feyerbaxı görər, bəyənər və rejissora haqqında yaxşı sözlər deyər.

Tamaşa zahirən seçim imtahanı kimi görünsə də, daha bir aktyorun yaşadığı dərin problemlərdən, onlarla mübarizəsindən və tənhalığından bəhs edir. O, düşdüyü quyudan, tək qaldığı dəryadan, toz-dumanında göz açaa bilmədiyi qumlu səhradan çıxmaq istəyir. Sadəcə, bircə səsə, işarəyə, azacıq ümidə ehtiyacı var.

***

Bilmirəm, amma məşq boyu mənə elə gəldi ki, Ş.Hüseynov qəhrəmanı Feyerbaxa təsəlli verir. Onunla özü arasındakı şəffaf səddi ehmalca yana itələyib ona pıçıldayır: "Ey, Feyerbax, mən də elə sənəm. Bax, bu elə də fəciəli deyil. Gəl, gəl o ucalıqdan birgə atılaq"...

"...Necə axmaq adamlar var?! Sənət haqqında, ümumiyyətlə, məlumatı olmayan, nə sizin, nə də mənim tanımadığım bir rejissor deyir ki, mənə ehtiyacı yoxdur! Təsəvvür edirsiz? Belə hallar bir dəfə yox, dəfələrlə olub. Onlardan biri hətta mənə dedi cəhənnəm ol, təlxək! Elə beləcə də dedi! İndiki rejissorlar belədi də! Əvvəllərsə aktyorlarla belə rəftar eləməzdilər! (aktyor bu zaman pauza edir və sanki, hamımıza məhz o rejissorları nişan verir). Görəsən, necə saatdı gözləyirik?! Yox, daha zamanı ölçməyəcəyik!" (Aktyor saatı qolundan açıb səhnəyə çırpır. Anasının öldüyü vaxtda qalan saatın parçaları ətrafa səpələnir)".

Tamaşanın, daha doğrusu, məşq prosesinin ən gərgin məqamı başlayır. Hiss edirəm aktyor replikalarında bu dəfə daha gərgin, daha kəskindir. Oyuna gətirdiyi aktyorun taleyi ilə barışmaqda çətinlik çəkir.

Bu məqamda Feyerbax xatırladığı dostu haqqında danışır və birdən zala baxaraq "Əslində, insan həmişə sağdır, bir pauza verir. Bilmirəm, deyəsən, bu mizan xeyli məşq olunub. Çox təbii, çox səmimi alınıb. sözdən sonra, özü də işığı keçmişin xətrinə ona yenidən əl edib, ələ işarəsi verəcək. Amma bir səs gəlir: "Cənab Lettau artıq gedib".

Ümidsizcəsinə zala baxır. Elə bilir buz kəsilmiş Lettau məhz bu sözdən sonra, özü də işığı keçmişin xətrinə ona yenidən əl edib, ələ işarəsi verəcək. Amma bir səs gəlir: "Cənab Lettau artıq gedib".

Ş.Hüseynov mizana uyğun olaraq, bu replikadan sonra da uzun bir pauza verir. Bilmirəm, deyəsən, bu mizan xeyli məşq olunub. Çox təbii, çox səmimi alınıb.

Aktyor gülümsəyir. Rejissora təqdim etdiyi etüdlər zamanı geyindiyi papaq və pencəyini soyunub kənara atır. Alnının tərini silərək anasını itirən uşaq kimi oğrun-oğrun ətrafa boylanır. Bu dəfə səhnəyə baxmadan "Necə? A, belə de... Gedib?! Əgər cənab Lettau gedibsə, onda... Demək istəyirəm, onda mən də gedə bilərəm..." deyib gülümsəyir. Bu zaman arxa pərdə açılır və bayaqdan mənə metal konstruksiya təəssüratı bağışlayan ölüm nərdivanı işıqlanır. Feyerbax yavaş-yavaş pillələri qalxır. İndi yalnız onun daxili səsini eşidirik: "Ölüm istəyirəm, dözmürəm artıq, mən baxa bilmirəm bu puç varlığa...".

***

Bu yerdə quruluş müəllifi Cənnət Səlimovanı dinləyək: "Tamaşa dramatik aktyor taleyi haqqında monoloqdur, məncə. O aktyor ki, bütün həyatı səhnəyə bağlıdır. Fərqi yoxdur o sağlamdır, gümrahdır, canlıdır, yoxsa xəstədir. Amma səhnəsiz həyatı yoxdur və onun tək ruhi azadlıq məkanı səhnədir. Qəhrəmanımız xəstədir. Amma o, teatra daim gərəkli aktyor olub. Belə olduğu halda ondan imtina, ruhunu xəstə etdiyi səhnədən atılması nə qədər ədalətlidir?! Tamaşa belə ağır suallara cavab axtarır deyə düşünürəm ki, Feyerbax Şövqinin ifasında çox təsirli alınacaq. Çünki istedadlı aktyorun həyat tarixçəsi məhz onun kimi istedadlı aktyorun ifasında belə gözəl alına bilərdi...".

Monotamaşalar silsiləsini (ilk tamaşasını 1994-cü ildə oynayıb) davam etdirən və sayca 6-cı oyununu göstərən Şövqi Hüseynovla ünsiyyətdə isə oxucu üçün maraqlı olacaq bir-iki məqamla kifayətlənib sonrakı sözünü premyeraya saxlayıram: "Rollarım çoxdur. Amma monotamaşalar mənim içimdə səliqə-sahman üçün lazımdır. Ümumiyyətlə, bu tamaşada, eləcə də digərlərində çalışıram insan amilini önə çəkim. İnsanı, onun taleyini oynayım. Əgər səhnədə o həqiqət varsa, tamaşaçı ona baxacaq. Məncə, bu tamaşa aktyor himnidir və düşünürəm ki, maraqlı alınacaq. Sonradan onu rus dilinə də çevirəcək, xaricdə də oynayacağam. Deyirsiniz, "Feyerbaxın sənət taleyi sizi qorxutmur?" Qorxutmur, amma həyəcan təbili çalmağın vaxtının çatdığını deyir...".

Sonda onu da deyim ki, tamaşa oktyabrın ortalarında seyrçi ilə görüşəcək.

**Həmidə Nizamiqızı**

№69 (2134)
18 sentyabr 2024
www.medeniyyet.az

# Məsləkdaşlar



Sentyabrın 18-i Azərbaycan musiqi mədəniyyətinin inkişafında görkəmli yeri olan Üzeyir Hacıbəyli (1885–1948) və Müslüm Maqomayevin (1885–1937) doğum günləridir.

**Öz taleyini xalqın taleyi ilə bağlayan, öz səadətini xalqın xoşbəxtliyində görən sənətkar həmişə böyük hörmətə nail olmuşdur. Azərbaycanın musiqi sənətində inqilab yaratmış Üzeyir Hacıbəyov və Müslüm Maqomayev də bu cür xoşbəxt insanlar idi…**

**Səid Rüstəmov**
**Xalq artisti, bəstəkar, pedaqoq**

Hər bir istedadın parlaması üçün çox zaman onun dünyaya göz açdığı və boya-başa çatdığı mühitin böyük təsiri, rolu olur. Eyni ildə, eyni gündə dünyaya göz açan Üzeyir Hacıbəyli və Müslüm Maqomayev də bu təsirlə həyat yolunu seçmiş, mədəniyyətimizin tərəqqisi yolunda birgə addımlamışlar. Bir amal, bir məslək iki istedadı – böyük şəxsiyyəti həmişəlik yaxınlaşdırmış, əsl dost, qardaş eləmişdi.

Azərbaycan peşəkar musiqisinin inkişafı xalqımızın mədəniyyət tarixinə əbədi daxil olmuş bu görkəmli musiqiçilərin adları ilə bağlıdır. Onların çoxcəhətli yaradıcılığı və ictimai fəaliyyəti Azərbaycanda milli bəstəkarlıq məktəbinin yaradılmasına zəmin olmuşdur. Bu məktəbin bir çox yetişdirmələrinin adı indi bütün dünyada şöhrət qazanmışdır.

Azərbaycan xalq mahnı ənənələrini dərindən bilən Üzeyir Hacıbəyli və Müslüm Maqomayev mütərəqqi rus və xarici ölkə bəstəkarlarının yaradıcılıq nailiyyətlərini diqqətlə öyrənmiş, yalnız Azərbaycan musiqi mədəniyyətinin deyil, eləcə də Cənubi Qafqaz, Yaxın və Orta Şərq ölkələri xalqlarının musiqi mədəniyyətinin inkişafında böyük rol oynamışlar.

Hər iki bəstəkarın qəlbinə qüvvət və qüdrət verən ümumxalq məhəbbəti olmuşdur. Onların əsərlərini kütlələrə sevdirən də məhz xəlqilikdir. Bu şəxsiyyətlərin yaradıcılığında operadan tutmuş kiçik romanslaradək musiqinin bütün formalarını görmək olar. Əgər Üzeyir bəy Azərbaycan professional musiqisindən ibarət ölməz dastan yaratmışdırsa, Müslüm Maqomayev bu dastana heç vaxt təravətini itirməyən boylar, səhifələr əlavə etmişdir.

Üzeyir Hacıbəylinin yaradıcılığı, maarifpərvərliyi və göstərdiyi çoxcəhətli fəaliyyəti ilə Azərbaycan musiqisinin inkişafında yeni yol açmışdır. Onun 1907-ci ildən 1937-ci ilədək yazdığı 7 opera və 3 operetta musiqi tariximizdə müstəsna yer tutur.

Bu yerdə Ümummilli lider Heydər Əliyevin sözlərini diqqətə çatdırmaq istərdik: "Üzeyir Hacıbəyov öz müstəsna qabiliyyəti, görünməmiş fədakarlığı, gözəl təhsili, vətənpərvərliyi, fəal ictimai-siyasi fəaliyyəti sayəsində xalqımızın ehtiram bəslədiyi ən görkəmli yaradıcı simalardan birinə çevrilib. O, dünya korifeylərinin ön sırasında Azərbaycanı ləyaqətlə təmsil edir... Üzeyir bəy bəşər mədəniyyəti tarixində sanki sönməz bir ulduzdur...".

Müslüm Maqomayev musiqi aləminə XX əsrin əvvəllərində, Azərbaycanda milli mədəniyyətin, incəsənətin tərəqqisi naminə qabaqcıl ziyalıların böyük səylə çalışdıqları bir vaxtda qədəm basmışdır. Xalqın maariflənməsi, onun mədəni inkişafı üçün əlindən gələni əsirgəməmiş, var qüvvəsini bu işə sərf etmişdir. 1910–1911-ci ildən başlayaraq Üzeyir Hacıbəyli və Müslüm Maqomayevin dostluğu daha da möhkəmlənmiş, yeni musiqi mədəniyyəti uğrunda aparılan gərgin mübarizədə daha da bərkimişdi. Onların yaradıcılıq xətlərindəki ardıcıllıq da məhz belə dostluq, yoldaşlıq, məsləkdaşlıq münasibətlərinin təsirindəndir.

1912-ci ilin sentyabrında Üzeyir bəy musiqi təhsili almaq üçün Moskvaya getdi. Onun əsərlərinin səhnə taleyi ilə məşğul olmaq isə Müslüm Maqomayevin öhdəsinə düşdü. Müslüm teatr və musiqi ilə bağlı bütün işləri tənzimləyir, məcrasına yönəldir, yorulmaq bilmədən var qüvvəsi ilə çalışırdı. O, pult arxasına keçir, hər bir tamaşanı böyük ustalıqla idarə edirdi. Üzeyir bəyin Bakıda olmaması "Nicat" cəmiyyətinin bir sıra mənfəətpərəst üzvlərinin onun əsərlərinə kəskin hücumlarını gücləndirirdi. Bu hücumları dəf etməkdə də Müslüm Maqomayev xüsusi səy göstərirdi.

Təhsil aldığı dövrdə Üzeyir bəy tez-tez öz məsləkdaşı ilə məktublaşırdı. Müslüm Maqomayev bilirdi ki, Üzeyir bəyin həm təhsil alması, həm də yeni əsərlər yaratması vacibdir. Bu halda onu hadsız hücumlardan qorumaq lazım gəlirdi. Bütün bunları sənətkar qəlbi ilə duyan Müslüm məsləkdaşının qəminə də, sevincinə də şərik çıxırdı.

Bildiyimiz kimi, Üzeyir bəyin "Arşın mal alan" operettası ilk dəfə 1913-cü ildə səhnəyə qoyulmuşdur. Tamaşanın müvəffəqiyyətini təmin edən amillərdən biri də musiqiyə parlaq dirijorluq edilməsi idi. Pult arxasında Müslüm Maqomayev dayanmışdı. Bu onun dirijorluq fəaliyyətində ikinci unudulmaz gün (ilki "Leyli və Məcnun" operasının premyerasında olmuşdu) idi.

Bu iki sənətkar milli musiqi teatrının yaranmasının bütün ağırlığını öz çiyinlərində daşıyır, onun repertuarının zənginləşməsi üçün böyük işlər görür, milli səhnə kadrları yetişdirirdilər. Onları həmçinin ideya-bədii görüşlərinin, ictimai-siyasi fəaliyyət sahəsindəki yüksək məqsədlərinin ümumiliyi birləşdirirdi. Hər iki bəstəkar milli folklora böyük həssaslıqla diqqət vermiş, onun geniş və dərin tədqiqi üçün şərait yaratmışlar.

Xalq musiqilərinin toplanması və lentə yazılması böyük əhəmiyyət kəsb edirdi. 1927-ci ildə Üzeyir Hacıbəyli və Müslüm Maqomayev tərəfindən tərtib edilən "Azərbaycan türk el nəğmələri" məcmuəsinin bu cəhətdən böyük əhəmiyyəti var idi.

M.Maqomayevin o illərdə kütləvi janrda yazılmış xeyli musiqi əsəri vardır. Bütün bunlara baxmayaraq, Ü.Hacıbəyli kimi o da irihəcmli əsərlər, yeni opera yazmaq istəyirdi. Bu məqsədlə "Şah İsmayıl" operasını yazdı və əsər 1919-cu ildə (7 mart) tamaşaya qoyuldu. Bu opera xalq musiqisindən qidalandığına görə böyük uğur qazanmışdır. Bəstəkar sonralar etiraf edirdi ki, "... məqsədim Ü.Hacıbəyovun yazdığı operalar şəklində opera yaratmaq idi. Yalnız bircə fərq ilə ki, improvizasiya yerlərində muğamatdan savayı bütün qalan parçalar yazdığım orijinal musiqi olmalıdır".

M.Maqomayev daim yeniliyə can atırdı. O həm də sovet Azərbaycanının kütləvi mahnılarını yaradan ilk bəstəkarlardandır. "Bizim kənd", "Zərbəçi yoldaşım", "Bahar", "Tarla" və s. belə mahnılardandır.

Sovet hakimiyyəti illərində Azərbaycanda yeni musiqi janrlarının yaranması, çoxsəsli xorun və notla çalan xalq çalğı alətləri orkestrinin təşkili, ilk kantatalar, romanslar, simfonik və proqram əsərlərinin yaranması da Üzeyir Hacıbəylinin və Müslüm Maqomayevin adı ilə bağlıdır.

1931-ci ildə Azərbaycan xalq çalğı alətləri orkestrinin yaranması ilə əlaqədar Üzeyir bəy bu orkestr üçün ilk orijinal əsərləri – Birinci və İkinci fantaziyaları yazdı. Daha sonra orkestrin repertuarını Müslüm Maqomayevin yazdığı bir çox xalq mahnı və rəqslər ilə ("Əsgəranı", "Turacı", "Ceyranı", "Rəng şüştər" və s.) də zənginləşdirdi.

Simfonik musiqi janrlarına xüsusi məhəbbət bəsləyən Müslüm Maqomayev Azərbaycan xalq melodiyasından, musiqi folklorunun bir sıra nümunələrindən ustalıqla bəhrələnərək simfonik orkestr üçün orijinal əsərlər yaratmışdır. Azərbaycan musiqi folklorunun Avropa musiqisi ilə sintezi bəstəkarın 1935-ci ilin 24 dekabrında tamaşaya qoyulmuş "Nərgiz" operasında xüsusilə qabarıqdır. Bu, hər şeydən əvvəl, Azərbaycan opera səhnəsinə də ilk dəfə inqilabi mövzunun gətirilməsi, kəndli qızının, çobanın və fəhlənin operada əsas surətlər kimi çıxış etməsi ilə əlamətdar olmuşdur. Bu həmçinin muğam improvizasiya çərçivəsindən tamamilə azad olan ilk operadır və Müslüm Maqomayev yaradıcılığının zirvəsidir.

Üzeyir bəy Müslüm Maqomayevin Azərbaycan incəsənətində göstərdiyi fədakarlıqlardan danışarkən qeyd edirdi: "Müslüm Maqomayev Azərbaycan musiqi sənəti yolunda qarşıya çıxan hər cür maneələri amansızcasına qırıb atan, ruhən və arzularına görə xalq sənətkarı, əsl realist, cəsarətli novator idi".

Göründüyü kimi, bu iki sənətkar Azərbaycan professional musiqisinin başında durmuş, onun gələcək inkişafının bünövrəsini qoymuşlar.

Fikrimizi Üzeyir bəyin dünya şöhrəti qazanan tələbələrindən Fikrət Əmirovun sözləri ilə tamamlamaq istərdik: "Üzeyir Hacıbəyov və Müslüm Maqomayevin musiqi rəşadətinin və insani hünərinin əzəməti, onların fəaliyyətinin Azərbaycan incəsənəti üçün əhəmiyyəti gözümüz qarşısında canlanır. Qəlbimiz Azərbaycan xalqının bu iki oğluna məhəbbət və minnətdarlıq hissi ilə coşur. Onlar Azərbaycan xalqının mədəniyyəti tarixinə ən parlaq səhifələrindən birini yazmışlar. Bu səhifə keçmişin epizodu kimi deyil, müasir dövrün canlı mənzərəsi kimi indiyədək çox böyük maraq oyadır...".

**Təranə Həsənova**
**Üzeyir Hacıbəylinin Ev-Muzeyinin kiçik elmi işçisi**

# "Qara qızıl" solmayan rənglərin işığında



Uşaq yaddaşı iti olar deyiblər. Bakılıların "nöyüt" dediyi "neft" kəlməsi işlədiləndə ilk olaraq ağlıma indi müəllifini xatırlamadığım tünd-göy rəngli "Qara qızıl" adlı hekayə kitabı gəlir. O zaman hələ məktəbli deyildim və anam mənə bu kitabdan neftçilər, Neft Daşları, Bakının "qara qızıl"ı haqqında hekayələr oxumuşdu...

Asfaltlanmayan küçələrdəki gölməçələrdə suyun üzərində bərq vuran nefti də xatırlayıram. Uşaqlar bəzən evdən kibrit gətirib bu "suya" od vurur, kiçik alovu Novruz tonqalı sanıb üzərindən atlanardılar. Bir də... nənəmin öz ata və babalarının neft mədənlərində çalışmaları ilə bağlı söhbətləri yaddaşımda iz salıb. İllər keçdi, orta məktəb dərsliyində Almas İldırımın məşhur "Əsir Azərbaycanım" şeirindən "Xəbər alsam Muğanımdan, Milimdən, Nazlı Bakım, o neft qoxan gülümdən" misraları da bu sıraya qoşuldu...

***

XIX əsrin sonu – XX əsrin əvvəlləri Azərbaycanda neft bumunun yaşandığı dövrdür. O zaman Avropadan və çar Rusiyasından neft sənayeçiləri Bakıda neft hasilatını artırmaq üçün durmadan çalışırdılar. Bu sahənin inkişafı ilə əlaqədar Bakıda əhalinin də sayı ilbəil artır, tikinti-quruculuq işləri geniş vüsət alırdı. Bu tərəqqi fonunda neft mövzusu ədəbiyyatda, təsviri sənətdə, kinoda geniş şəkildə əksini tapırdı. Baxmayaraq ki, həmin dövrdə ölkəmiz müstəmləkə olduğundan digər sərvətləri kimi, "qara qızıl"ın da gerçək sahibi deyildi...

XX əsrin sonlarında ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra özünün yeni neft erasına qədəm qoydu. Müasir Azərbaycanın qurucusu, Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında yeni milli neft strategiyası işlənib hazırlandı. 1994-cü ilin 20 sentyabrında Azərbaycanın xarici neft şirkətləri ilə imzaladığı "Əsrin müqaviləsi" bu sahədə həyata keçirilən siyasətin təntənəsinə çevrildi.

Ulu öndər tərəfindən işlənib hazırlanmış neft strategiyasının uğurla reallaşdırılması, bu siyasəti layiqincə davam etdirən Prezident İlham Əliyevin liderliyi ilə gerçəkləşdirilən qlobal enerji layihələri ölkəmizin davamlı inkişafının etibarlı təməli oldu.

Ulu öndər Heydər Əliyevin 16 avqust 2001-ci il tarixində imzaladığı fərmanla 20 sentyabrın Azərbaycanda "Neftçilər günü" elan edilməsi bu sahədə çalışan insanlara göstərilən diqqətin təzahürü, eyni zamanda neft sənayesinin ölkəmizin inkişafında əhəmiyyətinin bir daha təsdiqidir.

"Əsrin müqaviləsi" Azərbaycanı dünyanın karbohidrogen bazarının aktiv bir üzvünə çevirməklə yanaşı, ölkəmizin beynəlxalq birlikdə etibarlı tərəfdaş imici qazanmasına səbəb oldu. Azərbaycanın otuz ildən sonra öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsinin də əsasında düzgün neft strategiyası dayanır.

***

Bu il "Əsrin müqaviləsi"nin imzalanmasının 30 illiyidir. İqtisadi müstəqilliyimizin təməli olmuş bu müqavilənin yubileyi ərəfəsində milli təsviri sənətdə neft mövzusundan söz açmaq istəyirik. Qalereyalarımızda özünəməxsus dəst-xətte malik rəssamların neft mövzusunda müxtəlif janr və texnikalarda yaratdıqları silsilə əsərlər qorunur.

Neft mövzusuna müraciət edən ilk fırça ustalarından biri Xalq rəssamı Maral Rəhmanzadə olub. O, Neft Daşlarına yollanaraq bu mövzuda silsilə əsərlər ərsəyə gətirib.

2014-cü ildə "Əsrin müqaviləsi"nin 20 illiyinə həsr edilən silsilə tədbirlər zamanı Milli Azərbaycan Tarixi Muzeyində M.Rəhmanzadənin "Neft" silsiləsindən olan, 1947-ci ildə hazırladığı 10 orijinal litoqrafiyası nümayiş etdirilmişdi. Seriya əbədi odlara sitayiş səhnəsi təsvir edilmiş "Atəşpərəstlər" kompozisiyası ilə başlayır, neft tankerinin getdiyi dəniz mənzərəsi ilə tamamlanır.

M.Rəhmanzadə bir il sonra "Sosialist Bakısı" adlı yenə 10 vərəqdən ibarət seriyanı başa çatdırmışdı. Bura sənaye və şəhər mənzərələri, eyni zamanda "Növbənin təhvili", "Növbə günü", "Yeni yaşayış məskəninin tikintisi" adlı kompozisiyaları daxil edilmişdi. Neft Daşlarına səyahət zamanı rəssam dəniz neftçiləri ilə birgə onların adi iş günlərini müşahidə edərək Xəzərin sənaye mənzərələrini, estakadaların tikintisini, neft rezervuarlarını, buruqları, neft emalı prosesini canlandırıb.



Rəssamın neftçilərin əmək həyatının xarakterik epizodları əks olunmuş sulu boya ilə çəkilmiş əsərləri də xüsusi əhəmiyyət kəsb edir. Onun "Bizim Xəzərdə" adlı avtolitoqrafiyası və "Açıq dənizdə" litoqrafiyasında şaqulî buruqlar, polad estakadalar, parıltılı dəniz səthi təsvir olunub. Rəssam "Növbətçi kater", "Ərzaq gətirilib", "Tufanda" əsərlərində neftçilərin asan olmayan zəhmətini, özünəməxsus məişətini əks etdirib.

***

Azərbaycanın və keçmiş SSRİ-nin Xalq rəssamı Tahir Salahovun yaradıcılığında neft mövzusu xüsusi yer tutur. Hələ tələbəlik illərində "Dalğalar", "Xəzər axşamı", "Neft Daşları", "Estakada" və s. əsərlər çəkən rəssamın "Növbədən qayıdanlar" adlı diplom işi ona böyük şöhrət gətirir. Sankt-Peterburq Rəssamlıq Akademiyasının kolleksiyasında saxlanılan əsərdə iş növbəsindən qayıdan gənc fəhlələr təsvir olunub.

Sənətşünas, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev araşdırmasında yazır ki, rəssam müasir və bir qədər də ənənəvi mövzuya müraciət etməsinə baxmayaraq, diplom işində fədakar əməkdən qaynaqlanan, romantikliyin təminatçısı olan poetik ritmi və dinamikanı özünəməxsus sərt bədii şərhlə göstərmək istəyirdi. Tahir Salahov 1957-ci ildə professor P.D.Pokarjevskinin rəhbərliyi altında "Növbədən qayıdanlar" (165x368 sm) adlı diplom işini "əla" qiymətlə müdafiə edərək sovet təsviri sənətində yeni səhifə açdığını təsdiqlədi.

Bu gün T.Salahovun İçərişəhərdəki ev-muzeyində nümayiş olunan əsərlər sırasında biz çoxsaylı neft mövzulu təsvirlərə də rast gəlirik. Rəssam neftçilərin çətin əməyini tərənnüm edən müxtəlif janrlı əsərlər yaradıb. Bu mənada, müəllifin "Təmirçilər", "Quraşdırıcı", "Neftçi", "Çənlər parkı" və s. əsərlərini qeyd edə bilərik.

***

Azərbaycan sovet rəssamlığında sənaye və əmək mövzulu əsərlərdə neft sahəsi də diqqət mərkəzində olub. Bu ilin may ayında Milli İncəsənət Muzeyində "1920–1980-ci illər Azərbaycan rəngkarlığı və qrafikası" adlı yeni ekspozisiyanın təqdimatında da biz bunun şahidi olduq. Rəssamlarımızın tematik tablolarında neftçilərin portret və neft mənzərəli rəsmləri hər zaman tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

XX əsrin əvvəllərində Bakıda neft mədənləri üçün xarakterik olan hadisələrə görkəmli rəssam Əzim Əzimzadənin "Neft qurbanı" əsərində şahidlik edirik.



Bu rəsmdə XIX əsrin əvvəllərində qazanc üçün hər cür çətinliyə razı olan fəhlələrin acınacaqlı taleləri qabarıq şəkildə təsvir edilib.

Respublikanın digər tanınmış təsviri sənət ustalarından M.Abdullayev, S.Bəhlulzadə, C.Müfidzadə, R.Babayev, A.Hacıyev, B.Mirzəzadə, T.Nərimanbəyov və başqalarının yaradıcılığında yer alan neft mövzulu süjetli tablolar hər birinin fərdi müəllif yanaşması baxımından qiymətlidir.

Xalq rəssamı M.Abdullayevin "Bakılılar" əsərində sənaye motivinin cəlbedici görüntüsü yaradılıb. Xalq rəssamı N.Qasımovun əsərlərində Neft Daşları, neftçilər mövzusu, əmək insanlarına baxış xüsusi yer tutur. Sovet dövrü Azərbaycan təsviri sənətində əməkçilərin fəaliyyəti rəssamların dünyagörüşünə, fəlsəfəsinə təsir göstərən amillərdən biri idi.

Xalq rəssamı C.Müfidzadənin də yaradıcılığında neft mövzusu ayrıca yer tutur. Onun sənaye mövzusunda işlədiyi "Abşeronun tacı", "Bakı neft paytaxtıdır", "Polad meşə", "Neftayırma zavodu", "Bakı krujevası", "Neft məbədi" və s. lövhələri özünün obrazlı bədii həlli ilə seçilir.

B.Əliyevin neftçilərin əməyini əks etdirən "Yeni neft yatağı", "Növbədən əvvəl" və "Fasilə zamanı" tablolarında isə neftçilərin müxtəlif nəsillərinin təmsilçilərini bir araya gətirən müəllif peşənin çətinliyinə baxmayaraq, onu yeni nəslin həvəslə davam etdirmək istəyində olduğunu diqqətə çatdırıb.

Professor Ziyadxan Əliyev bu mövzuda araşdırmasında qeyd edir ki, zamanında bir çox xarici əcnəbi, xüsusilə də rus-sovet rəssamlarının Azərbaycan neft sənayesinin bədiiləşdirilməsi sahəsində atdıqları ilk addımlar sonradan yerli sənətkarlar tərəfindən uğurla davam etdirilib. S.Bəhlulzadənin "Xəzər üzərində axşam", "Xəzər gözəli", "Mavi əfsanə" və "Əbədi məşəl", B.Mirzəzadənin "Yeddi gəmi adası", A.Hacıyevin "Yerin sahibi" və "Fırtınadan güclü" kimi əsərlərində neft məkanları və yerin təkindən təbii sərvət çıxaranlar həm real-gerçəkçi, həm də obrazlı-fəlsəfi tutumda tamaşaçılara təqdim olunub.

***

Müasir dövr rəssamlığımızda da neft mövzulu maraqlı sənət nümunələri yaradılıb.

Görkəmli rəssamlar Arif Əziz, Arif Hüseynov, Kamil Nəcəfzadə, Bəxtiyar Yusifov, Arif Ələsgərov, Elbəy Rzaquliyev, Zakir Hüseynov və başqalarının yaradıcılığında neft mövzusu öz əksini tapıb.

Rəssam Sabir Çopuroğlu isə həttа əsərlərini xam neftlə çəkməyə nail olub. Onun neftlə rəngləri kətan üzərinə barmaqları vasitəsilə çəkməsi olduqca maraq doğurur. Rəssam haqqında "Neftin adamı" adlı qısametrajlı film də lentə alınıb.

Müasir rəssamların neft mövzusunda yaratdıqları əsərlər içərisində İrina Eldarovnanın "Qızlar neftçilərə üstünlük verir" silsiləsi fərqliliyi ilə diqqəti çəkir.

2021-ci ildə rəssam Səbinə Şıxlinskayanın "Yaxından" adlı fərdi sərgisi bütünlüklə neft sahəsinə və neftçilərin həyatına həsr olunmuşdu. Rəssam neft mövzusunda monumental rəsm əsərləri ilə yanaşı, müasir sənəti əks etdirən video və səs instalyasiyaları da təqdim edib.

Onu da qeyd edək ki, "Əsrin müqaviləsi"nin 20 illiyinə həsr edilən rəssamlıq müsabiqəsinə müəlliflərin neft mövzusunda 143 sənət nümunəsi təqdim olunmuşdu.

Təsviri sənətimizdə neft mövzusu hər zaman aktual olaraq qalacaq və fırça ustalarının fərqli yanaşmaları ilə zənginləşəcək. Amma etiraf edək ki, Azərbaycan təsviri sənətində neft mövzusuna aid yüzlərlə əsər çəkilsə də, Tahir Salahovun obrazlı-fəlsəfi tutumda olan əsərləri bədiiliyinə görə fərqli və yaddaqalandır.

**Lalə Azəri**

# “Cavanlıq eşqinlə çalışanda aldığın qiymət adamı ruhlandırır”

## “Sənət adamına vaxtında qiymət verilməlidir. Yaş ötüb sənətlə vidalaşmaq zamanı gələndə dəyərləndirmə nəyimə lazımdır?”

Onu çoxdan tanıyıram. Hələ ötən əsrin doxsanıncı illərində Azərbaycan Dövlət Gənclər Teatrının səhnəsində tez-tez tamaşalarda, özü də fərqli rollarda gördüyüm zamandan. Qəribə də olsa, həmin teatrın, demək olar ki, bütün tamaşaları barədə yazmışam, bu teatrdan pərvazlanmış neçə-neçə aktyorla tanışlığımız sənət dostluğuna çevrilib. Amma Xalidə xanımla ünsiyyətimiz olmayıb… Nədən? Səbəbini tapa bilmirəm. Deməli, qismət indiyə imiş.

## “Yolun ki səhnədən düşdü...” rubrikasının qonağı aktrisa Xalidə Əliməmmədovadır



İlıq bir yay günündə Xalidə xanımla çay süfrəsi arxasında əyləşib söhbət edirik.

*– Bizim təzə rubrikamızın ilk və ənənəvi bir sualı var: necə oldu ki, yolunuz səhnədən düşdü?*

– Teatrı çox sevirdim. Aktrisa olmaq arzum idi. Təsəvvür edin, 17 yaşımda, 90-cı ilin yayında Xaçmazdan Bakıya gəldim, İncəsənət İnstitutuna (indiki Mədəniyyət və İncəsənət Universiteti – red.) sənədlərimi verdim, amma qəbul ola bilmədim. Qurbanəli adlı bir müəllimim var idi. Qabiliyyətimə bələd idi. Atama dedi ki, bu qızı kəndə qaytarma. Kəndə gedəcək, bir nəfərlə ailə quracaq, olacaq kənd gəlini, istedadı da batacaq. Qoy Bakıda qalsın, işləsin, hazırlaşsın, bəxtini yenə sınasın.

*– Və …*

– Atam razılaşdı. Rəhmətlik atam heç bir övladının arzusuna qarşı çıxmayıb. Mən düz dördüncü il qəbul oldum. Hətta qohumlarımdan bəziləri mən instituta qəbul olandan sonra da atama deyirdilər ki, Xalidəni niyə Bakıda saxlamısan? O nə sənətdir seçib? Birdən yolunu azar…

*– Yolunu azmaq istəyən şəhərə, kəndə baxmır ki...*

– Elə atam da belə suallara kəsə cavab verirdi ki, övlad mənimdir, mən bilərəm. Mənə deyirdi ki, sənin arxanda dayanmışam, sevib seçdiyin sənətdir, çətinliklərinə dözəcəksən də, bu yolu sonadək gedəcəksən də!...

*– Xalidə xanım, sənətə də teatrın, kinonun böhranlı dövründə, sabaha etibarın olmadığı bir vaxtda gəldiniz.*

– Elədir. İnstitutda böyük aktyorumuz Məlik Dadaşovun kursunda oxumuşam. Məlik müəllim həm də böyük insan idi. Bizə təkcə sənəti yox, həyatı da öyrədirdi. Çətin vaxtlar idi, həmişə deyirdi ki, insanlarla ehtiyatlı olun, hər kəslə ünsiyyət qurmayın… Hərəniz bir rayondan gəlmisiniz, hələ gözünüz açılmayıb, fırıldaqçılar aldadarlar sizi. Qızlara da həmişə deyərdi ki, şalvar yox, don geyinin. Yoxsa yerişinizi, oturuşunuzu itirəcəksiniz; bu sizə səhnədə də, həyatda da mane olacaq...

*– Amma tələbəlik geridə qaldı və siz peşəkar aktrisa kimi fəaliyyətə başladınız…*

– Rəhmətlik Hüseynağa Atakişiyevin yaratdığı teatrda böyüdüm, yetişdim. Nə qədər çətinliklərdən keçdim o kollektivlə birlikdə. Yadımdadır, Firuz Mustafanın “Qəfəs” əsərini hazırlayırdıq. Premyeraya bir gün qalmış sonuncu məşqdə Hüseynağa müəllim dedi ki, hazır deyilsiniz. Bu gecəni teatrda qalıb məşq edirik, o nöqsanları düzəldirik. Mən, Rəfael, Coşqun (Əməkdar artistlər Rəfael İsgəndərov və Coşqun Rəhimov) … səhərədək məşq etdik. Axır ki, Hüseynağa müəllimi razı sala bildik. Heç fikirləşmədik ki, bütün gecəni çalışıb yorğun, yuxusuz halda premyeranı necə oynayacağıq? Cavan idik, belə çətinliklər bizə adi görünürdü.

*– Maşallah, rollarınız da bol…*

– Mənim rol sarıdan heç vaxt kasadlığım olmayıb. Teatrda hansı tamaşaya daxil ediblər, öz rolumu canla-başla oynamışam. Çalışmışam ki, bir rolum digərinə oxşamasın, xarakterlər seçilsin. Əlbəttə, Gənclər teatrında işləyəndə rollarım daha çox idi. Aktyor truppası kiçik idi deyə, bütün heyət az qala hər tamaşada məşğul olurdu.

*– İki yığcam teatr kollektivinin bir böyük teatra – Gənc Tamaşaçılar Teatrına birləşdirilməsi prosesini necə keçdiniz?*

– Gənclər teatrından sonra bu teatrdakı qaydalara rahat uyğunlaşa bilmirdim. Kollektiv böyük, bütün aktyorlar tamaşada məşğul olmaq istəyirlər. Mən isə düşünürdüm ki, çox da yaşlanmamış öz potensialımdan istifadə etməliyəm.

*– Bəs hansısa teatra sizi dəvət ediblər?*

– Hələ tələbə vaxtı Məlik Dadaşov məni Akademik Dram Teatrına aparmaq istəyirdi. Qorxdum, getmədim. Sonralar özüm iş yerimi dəyişmək istəmədim.

*– Səbəb?*

– Bilirsiniz, hər təzə kollektivdə sıfırdan başlamalısan. Məsələn, Gənclər teatrında mən yüzdən çox irili-xırdalı rol oynamışdım. Gənc Tamaşaçılar Teatrında tamaşa quran rejissorlar məni səhnədən tanıyırdılar, iş prosesindən yox. Odur ki, yenidən özünü tanıdıb təsdiq edincə xeyli vaxt gedir. Əslində, bu teatrdakı rol yükümdən şikayətçi deyiləm. Bir çox tamaşada varam. Amma gedib truppa müdirindən soruşum ki, niyə filan rejissor mənə öz tamaşasında rol vermədi, yaxud direktorun qapısını döyüm ki, niyə tamaşalarım azdır, demərəm. Mən belə əməllərdən uzağam. Dəyər verən verir, dəyər verməyən də yanımdan ötüb keçir.



*– Və bu məqamda siz?...*

– Heç o tərəfə də baxmıram.

*– Sənətlə bağlı çox pozitiv düşüncəniz var. Dəyər verməyənlərdən incimirsiniz…*

– İnciyəndə nə olacaq ki? Nə dəyişəcək ki? Görmək istəyən görür. Teatrın cari repertuarında kifayət qədər məşğulam. Ən son tamaşalardan “Qaraca qız”da Gülpərini, “Kod adı: V.X.A.” tamaşasında Xədicə Kəngərlinskaya rolunu oynayıram. Digər tamaşalarda da məşğulam: istər uşaq tamaşası, istər böyük, mənim üçün fərq etməz. Çünki sevdiyim işlə məşğulam.

*– Bəs pedaqoji fəaliyyətlə məşğul olursunuz?*

– Yox. Baxmayaraq ki, universiteti həm də teatrşünaslıq üzrə magistr pilləsində bitirmişəm. O zaman “Səhnə danışığı” kafedrasının müdiri Əzizağa Quliyev məni laborant kimi kafedrada saxlamaq istəyirdi, razılaşmadım. Daha bir neçə il valideynlərimin hesabına yaşamaq istəmədim. Əslində, həm kafedrada, həm də teatrda çalışa bilərdim. Amma o təklifi qəbul etməməklə böyük səhv etdim.

*– Bəs indi? Səsinizin tembri yerində, savadınız da, dünyagörüşünüz də, sənət təcrübəniz də artıb.*

– İndi universitetdə Kamilə Mehdiyeva həmin kafedranın müdiridir. O da Məlik Dadaşovun tələbəsi olub. Hərdən mənə deyir ki, gəl, pedaqoji fəaliyyətə başla. Getmirəm…

*– Niyə?*

– Mən 2014-cü ildə qəfildən insult keçirtdim. Tam bərpa olsam da, mənə səs-küylü yerdə çox qalmaq olmaz. İndiki tələbələr də bizim dövrün tələbələri kimi deyillər. Çox nazlıdırlar (gülür)…

*– Həm də bizlərə baxmış daha səhlənkardırlar…*

– Bu da var. Mən heç kimi qınamıram. Yəni gəncliyin seçimi budur.

*– Bildiyim qədər, bir qızınız var. Onda necə, sənət həvəsini hiss edirsiniz?*

– Sənətə meyli var, amma mən istəmirəm. Mən sənətdə çox əziyyət çəkmişəm.

*– Bəlkə siz varsınız deyə, qızınız o qədər də əziyyət çəkməz. Hər necə olsa, sizin səhvlərinizi onun təkrar etməyinə imkan verməzsiniz…*

– Yox… Elə deyil. Sənət adamına vaxtında qiymət verilməlidir. Yaş ötüb sənətlə vidalaşmaq vaxtı gələndə dəyərləndirmə nəyimə lazımdır? İnsan cavanlıq eşqi ilə çalışanda aldığı qiymət onu daha da ruhlandırır, həvəsləndirir.



*– Xalidə xanım, dedikləriniz məndən ötrü bir qədər mübahisəli olsa da, sizinlə razılaşıram. Çünki hər kəsin öz həyat fəlsəfəsi var…*

– Bəzən küçədə, ictimai nəqliyyatda gedəndə səsimi eşidəndə kimsə dönüb geri baxır, deyir ki, səsiniz mənə tanış gəlir… Mən də gülümsəyirəm ki, yəqin bir axşam evinizə qonaq gəlmişəm.

*– Yəqin ki, dublyaj səsləndirmələrini nəzərdə tutursunuz…*

– Bəli. Bununla bağlı bir hadisə yadıma düşdü. İlk dəfə səsləndirməyə gələndə gördüm ki, müəllimim Xalq artisti Kamal Xudaverdiyev də oradadır. Sıxıldım. Kamal müəllim səbrlə izah etdi ki, qızım, bura auditoriya deyil, biz hamımız burada aktyoruq. Bu gün sən mənim qızımın səsini yaza bilərsən, sabah isə sevgilimin, həyat yoldaşımın, düşmənimin, anamın. Biz bərabərhüquqlu işçilərik.

*– Sənətdən başqa həyatınızda nə var? Hansı işlə məşğulsunuz?*

– Qızım, doğmalarım və səhnə. Başqa heç nə… Hə, bir də uşaq olanda xalçatoxuyan bacımın yanında əyləşib ondan ilmə vurmağı öyrənmişəm, parça üzərində sapla naxış sala bilirəm. Əgər bunlar da bir istedad sayılırsa, deməli, nəsə bacarıram.

*– Əgər kövrəlməyəcəksinizsə, sizə bir sual verim. Cavab verməak istəməsəniz, incimərəm...*

– Buyurun…

*– Bayaq dediniz ki, insult keçirtmisiniz. Doğum tarixinizlə yaşınızı hesablayanda çaşdım: axı cavan adam niyə durduğu yerdə insult keçirtsin? Belə bəlalar adamı boşuna yaxalamır.*

– İnsana bütün nemətləri, gözəllikləri, mükafatları Allah bəxş edir. Biz gərək xəstəliyi də, bəlanı da, faciəni də şükürlə qəbul edək. Mən özüm ibadət əhliyəm. Reanimasiyada yatanda anam, bacılarım hamısı yığışıb gəldi. Bacım mənə dedi ki, yataqda olsan da, namazını qıl, hərəkət edə bilmirsənsə, heç olmasa, sözlərini de. Cavab verdim ki, unutmuşam. O da dedi ki, eybi yoxdur, nə yadındadırsa, onu da təkrar et. Düz üç gün gecə-gündüz “bissimillah-rəhmani-rəhim”, bir də “əlhəmdüllah” dedim. Palataya keçəndən sonra bacım soruşdu ki, nəsə yadına düşür? Dedim ki, hə, bir-bir sözlər yadıma düşür. Amma mənim bir tərəfim iflicdir, hərəkət edə bilmirəm, nə vaxt ayağa qalxacağımı da bilmirəm, necə dəstəmaz alım? Bacım sakitcə dedi ki, sən yadına düşənləri təkrar et, əlini divara sürt, təhəmmül et, namazını qıl. İnanırsınız, mən yataq xəstəsi olduğum halda da ümidimi Allahdan heç kəsmədim, ibadətimdən qalmadım, bütün dualarımda da Allahıma şükür etdim. Müalicə həkimim doğmalarıma deyirmiş ki, hazırlıqlı olun…

*– Yəni hər cür sonluq ola bilərdi?...*

– Bəli. Deyilənə görə, mən çox ağır formada insult keçirtmişdim. Altı ay yataqda qaldım. Təxminən bir ilə yenidən yeriməyi öyrəndim, orqanizmimdəki fizioloji funksiyalar bərpa olundu.

*– O zaman qızınızın neçə yaşı var idi?*

– Dörd yaşı var idi. Özü də uşağın gözünün qarşısında oldu hər şey. Küçədə getdiyimiz yerdə hiss etdim ki, sol ayağım dartılır, elə bil addım atmaq istəmir. Gözlərimdən sel kimi su axırdı. Həmin hadisədən 10 il keçib. Bu gün mən ayaq üstəyəm. Sağlamam. İşləyirəm. Övladımı böyüdürəm. Öz gücümə mənzil sahibi olmuşam. Min şükür! Allah hər kəsə hər şeyi onun istədiyi qədər vermir.

*– Şükür ki, elə ağır xəstəlik fəsadsız ötüşdü və siz bu gün də səhnədəsiniz.*

– Əgər anam, qardaşım, bacalarım, yaxın rəfiqələrim olmasaydı, mən bu gün ayaq üstə olmazdım. Həkimlərim Təranə xanıma, Lalə xanıma bu gün də minnətdaram.

*– Səhnəyə qayıdışınız necə oldu?*

– Xəstəlikdən ayağa qalxandan sonra əvvəlcə xırda rollarla, epizodlarda səhnəyə çıxırdım ki, çox yorulmayım. Sağ olsun teatrın rəhbərliyi, rejissorlarımız ki, mənim vəziyyətimə anlayışla yanaşdılar. “Ünvansız qatar”da Bələdçi obrazı ilə səhnəyə qayıtdım.

*– Serial seyr etməyi sevənlər sizi müxtəlif rollarda görüblər. Bu cəbhədə vəziyyət necədir?*

– İlk çəkildiyim serial “Sirr” adlanırdı. Sonralar “Muradına çatan günəş”, “Bir ovuc torpaq”, “Həyat varsa”, “Ata ocağı” seriallarında çəkildim. Hələlik ən son təhvil verdiyim serial “Vətəndaş A” serialıdır. Cəfər Cabbarlının “Almaz” pyesinin motivləri əsasında çəkilib. Gənc rejissor Elvin Rüstəmzadə ekranlaşdırıb. Mən orda savadsız, rüşvətxor biologiya müəllimi rolunu ifa edirəm. Bu günlərdə efirə çıxmalıdır. “Tilov”, “Sara” seriallarında məşğulam. Teatr da məzuniyyətdən qayıdıb. Yeni tamaşalarımız olacaq. Gəlin, sizi də tamaşalarımızda gözləyirik.

***

Xalidə Əlimməmmədova ömrünü sevdiyi sənətə, ona çox əziz olan teatra həsr edib. Peşmandırmı? Yox. Olsaydı, müsahibədən hiss edərdim. Axı çox vaxt hər kəsə təqdim edilən müsahibə əsl söhbətin dörddə biri olur, ya olmur… Xoşbəxtdirmi? Məncə, hə. Çünki Xalidə xanım həyatının, sənətinin ən xoş anları ilə yaşamağı bacarır. Əslində, onu xoşbəxt edən sənət və insan sevgisi, övladı qarşısında valideyn məsuliyyəti, doğmaları, dostları ilə münasibətində səmimiyyəti və sədaqətidir.

**Gülcahan Mirməmməd**

## Xatirə təqvimi — 18 – 20 sentyabr

### Azərbaycan

**18 sentyabr 1885** – Dahi bəstəkar, dramaturq, publisist, pedaqoq, Azərbaycanın və SSRİ-nin Xalq artisti, akademik Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyli (1885 – 23.11.1948) anadan olub. Azərbaycan professional musiqisinin banisi, müsəlman Şərqində ilk operanın (“Leyli və Məcnun”, 1908), ilk operettanın (“Ər və arvad”, 1910) yaradıcısıdır. “O olmasın, bu olsun”, “Arşın mal alan” operettalarının, “Əsli və Kərəm”, “Koroğlu” operalarının, Azərbaycanın Dövlət himninin, romans və mahnıların müəllifidir. Bəstəkarın doğum günü milli musiqi bayramı kimi qeyd olunur.

**18 sentyabr 1885** – Bəstəkar və dirijor, Əməkdar incəsənət xadimi Müslüm (Əbdülmüslüm) Məhəmməd oğlu Maqomayev (1885 – 28.7.1937) anadan olub. Üzeyir Hacıbəylinin yaxın sənət arxadaşı kimi Azərbaycan peşəkar musiqili teatrının yaranmasına töhfələr verib. “Şah İsmayıl”, “Nərgiz” operalarının müəllifidir. Opera və Balet Teatrının dirijoru, Azərbaycan Radiosunun musiqi şöbəsinin rəhbəri olub, “Radio marşı”nı yazıb.

**18 sentyabr 1908** – Əməkdar mədəniyyət işçisi Məmməd Şahverdi oğlu Əmirov (1908–1986) Ağdam rayonunun Novruzlu kəndində doğulub. Füzuli və Ağdam teatrlarında aktyor, direktor işləyib.

**18 sentyabr 1978** – Görkəmli aktyor, rejissor, Azərbaycanın və SSRİ-nin Xalq artisti Adil Rza oğlu İsgəndərov (5.5.1910 – 1978) vəfat edib. Milli Dram Teatrının baş rejissoru, “Azərbaycanfilm”in direktoru işləyib.

**18 sentyabr 1988** – XX əsr Azərbaycan poeziyasının parlaq nümayəndəsi Məhəmmədhüseyn Şəhriyar (1905-1988) vəfat edib. Şair Təbriz yaxınlığındakı Xoşnigab kəndində doğulub. Doğma Azərbaycan dili ilə yanaşı, fars dilində də şeir topluları yaradıb.

**18 sentyabr 1994** – Bakıda böyük dirijor və bəstəkar, SSRİ Xalq artisti Niyazinin (Niyazi Zülfüqar oğlu Hacıbəyov-Tağızadə) xatirə muzeyi açılıb. Mərasimdə Prezident Heydər Əliyev iştirak edib.

**18 sentyabr 1995** – Prezident Heydər Əliyev Üzeyir Hacıbəylinin şərəfinə 18 sentyabr – “Üzeyir Musiqi Günü”nün qeyd olunması haqqında fərman imzalayıb. Həmin gün dahi bəstəkarın 110 illiyi təntənəli mərasimlə qeyd olunub.

**18 sentyabr 1996** – Bakıda, Respublika Sarayında görkəmli bəstəkar Müslüm Maqomayevin 110 illik yubileyinə həsr olunmuş təntənəli gecə keçirilib. Prezident Heydər Əliyev mərasimdə iştirak edib.

**18 sentyabr 2008** – Prezident İlham Əliyev Bakı Musiqi Akademiyasına Üzeyir Hacıbəylinin adının qaytarılması ilə bağlı sərəncamlar imzalayıb.

**18 sentyabr 2013** – Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksinin açılışı olub. Memorial kompleks 1918-ci ildə erməni silahlı dəstələrinin Qubada qətlə yetirdikləri dinc əhalinin basdırıldığı kütləvi məzarlıq yerində yaradılıb.

**18 sentyabr 2022** – Əməkdar mədəniyyət işçisi, teatrşünas, publisist Atababa İsmayıl oğlu Hacıbabayev (22.9.1947 – 2022) vəfat edib.

**19 sentyabr 1973** – Tanınmış teatrşünas və ədəbiyyatşünas, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü Cəfər Haşım oğlu Cəfərov (7.9.1914 – 1973) vəfat edib. “Rejissor sənəti”, “Azərbaycan Dram Teatrı” və s. kitabların müəllifidir.

**19 sentyabr 1992** – Görkəmli şərqşünas, filologiya elmləri doktoru adını almış ilk azərbaycanlı qadın ərəbşünas, professor Aida Nəsir qızı İmanquliyeva (10.10.1939 – 1992) vəfat edib. Azərbaycan EA Şərqşünaslıq İnstitutunun direktoru olub.

**19 sentyabr 1995** – SSRİ Xalq artisti, bəstəkar Rauf Soltan oğlu Hacıyev (15.5.1922 – 1995) vəfat edib. Operettaların, filmlərə musiqilərin, populyar mahnıların müəllifidir. 60-cı illərdə Azərbaycanın mədəniyyət naziri işləyib.

**19 sentyabr 2011** – Bakıda görkəmli bəstəkar, Azərbaycanın və SSRİ-nin Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı Fikrət Əmirovun abidəsinin (heykəltaraş – Namiq Dadaşov) açılışı keçirilib. Mərasimdə Prezident İlham Əliyev iştirak edib.

**19 sentyabr 2016** – Əməkdar incəsənət xadimi, televiziya rejissoru Ələkbər Rauf oğlu Kazımovski (10.7.1953 – 2016) vəfat edib.

**20 sentyabr 1918** – Əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, respublika Dövlət mükafatı laureatı Mürsəl Nəcəfqulu oğlu Nəcəfov (1918–1997) anadan olub. Azərbaycan Rəssamlar İttifaqı İdarə heyətinin katibi işləyib.

**20 sentyabr 1928** – Azərbaycan Xalq Maarif Komissarlığının qərarı ilə Bakı Uşaq Teatrı yaradılıb. Teatrın rus bölməsi 1928-ci il noyabrın 6-da, Azərbaycan bölməsi 1930-cu il yanvarın 30-da ilk tamaşalarını təqdim edib. 1936-cı il iyulun 18-dən etibarən Bakı Uşaq Teatrı Azərbaycan Xalq Maarif Komissarlığının əmri ilə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı adlandırılıb.

**20 sentyabr 1993** – Kinorejissor, Azərbaycanın və SSRİ-nin Xalq artisti Əjdər Mütəllim oğlu İbrahimov (29.4.1919 – 1993) vəfat edib. Bakı kinostudiyasında, “Mosfilm”də filmlər çəkib.

### Dünya

**18 sentyabr 1905** – Dünyaşöhrətli İsveç və Amerika kinoaktrisası, fəxri “Oskar” laureatı Qreta Qarbo (Greta Garbo – Greta Lovisa Gustafsson; 1905–1990) anadan olub. Filmləri: “Qrand-hotel”, “Mata Xari”, “Anna Karenina” və s.

**19 sentyabr 1911** – İngilis yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1983) Vilyam Cerald Qoldinq (William Gerald Golding; 1911–1993) anadan olub. Əsərləri: “Milçəklərin hökmdarı”, “Sərbəstdüşmə”, “Varislər”, “Piramida”, “Görünən qaranlıq” və s.

**20 sentyabr 1878** – Amerika yazıçısı Epton Bill Sinkler (Upton Beall Sinclair; 1878–1968) anadan olub.

**Hazırladı: V.Orxan**

## “Türkmənşəli arxaizmlər lüğəti”

### Üçcildliyin nəşri tamamlanıb

AMEA Nəsimi adına Dilçilik İnstitutunun Azərbaycan dilinin tarixi şöbəsində “Türkmənşəli arxaizmlər lüğəti” (XIII-XVIII əsrlər Azərbaycan yazılı abidələri əsasında) leksikoqrafik əsərinin II və III cildləri işıq üzü görüb.




Dilçilik İnstitutundan bildirilib ki, bu fundamental lüğətə arxaizmlərin bütün növləri daxil edilib. Əsər Azərbaycan dili tarixinin leksikologiya, semasiologiya, sintaksis, morfologiya, fonetika sahələri üçün zəngin material mənbəyidir. “Türkmənşəli arxaizmlər lüğəti”ndə sözlərin tarixi xronologiyası tətbiq edildiyindən həm məna inkişafını, həm də işlənmə intensivliyini aşkar izləmək mümkündür.

Lüğətin elmi redaktoru Dilçilik İnstitutunun direktoru professor Nadir Məmmədli, layihənin rəhbəri və ön sözün müəllifi institutun Azərbaycan dilinin tarixi şöbəsinin müdiri filologiya üzrə fəlsəfə doktoru, dosent Xədicə Heydərovadır.

Lüğət üzərində Xədicə Heydərova, professorlar Qəzənfər Kazımov və Sevil Mehdiyeva, dosentlər Vahid Adilov, Vahidə Cəfərzadə, Teyyub Quliyev, Aynur Paşayeva və Türkan Əsgərova, filologiya üzrə fəlsəfə doktorları Reyhan Mədətova, Aynur Mahmud və Elnurə Abbasova, elmi işçi Rəxşanə Babazadə işləyiblər.

Lüğətin hazırlanmasında həm əlyazmalardan, həm də müasir dövrdə transfoneliterasiya olunmuş əsərlərdən istifadə olunub. Mənbələr “Kitabi-Dədə Qorqud”un Drezden nüsxəsindən tutmuş XVIII əsrə qədər olan yazılı abidələri əhatə edir.

Lüğətin I cildi bu ilin əvvəlində çap olunub.

# Antalya Yörük Türkmən Festivalında Azərbaycan musiqi və rəqsləri

13-15 sentyabr tarixlərində keçirilən III Beynəlxalq Antalya Yörük Türkmən Festivalında ölkəmizin də təmsil olunması barədə məlumat vermişdik. Ölkəmiz festivalda Türkiyədəki səfirliyimizin nəzdində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) ilə Antalya Azərbaycan Mədəniyyəti və Həmrəyliyi Dərnəyi tərəfindən təmsil edilib.

Festival çərçivəsində azərbaycanlı sənətçilərin konsert proqramı keçirilib. Xalq artisti Azərin, AMM-in solisti Vüsalə Əsgərova, mərkəzin "Xəzər" xalq rəqsləri ansamblı və tarzən Pərviz Musayevin iştirak etdiyi konsert alqışlarla qarşılanıb.







Yörük mədəniyyətini gələcək nəsillərə çatdırmaq məqsədi daşıyan festival çərçivəsində müxtəlif xalqları təmsil edən nümayəndə heyətləri milli geyimlər və dövlət bayraqları ilə Antalyanın mərkəzi hissəsində yürüş edib, milli çadırlar qurulub, konsert proqramları təşkil olunub.

Türk dünyası arasında həmrəyliyi, Azərbaycan-Türkiyə qardaşlığını tərənnüm edən mahnılar, "Azərbaycan süitası", "Cəngi" rəqsləri və digər musiqi nömrələri tədbirə xüsusi rəng qatıb.

Proqramdan sonra çıxış edən AMM-in direktoru Samir Abbasov festivalın təşkilatçılarına təşəkkürünü ifadə edərək, Türkiyə-Azərbaycan, eləcə də bütün türkdilli xalqların birliyinin ölkələrimiz üçün əhəmiyyətini vurğulayıb.

Tədbirin son günü azərbaycanlı musiqiçilərin də iştirak etdiyi daha bir konsert proqramı təşkil edilib. Tarda Pərviz Musayev və qanunda Günel Adıgözəlova milli musiqi nümunələrini səsləndiriblər.

Antalyanın Döşəmealtı Düzlərçamı Karaman piknik sahəsində təşkil edilən festivalda milli çadırımızı ziyarət edən Antalya Böyükşəhər Bələdiyyəsinin sədri Mühittin Böcek Azərbaycan heyəti ilə görüşüb. Bələdiyyə sədrinə üzərində Azərbaycan və Türk dünyasının mədəniyyət paytaxtı Şuşa şəhərinin əks olunduğu Azərbaycan xalçası hədiyyə edilib.

Festivalda Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan, Şimali Kipr kimi türkdilli ölkələrlə yanaşı, Bosniya və Herseqovina, Serbiya, Yunanıstan, Şimali Makedoniya, Bolqarıstan, Əfqanıstan, Suriya, İraq və başqa ölkələr də təmsil olunub.

# Növbəti Dünya Köçəri Oyunları Qırğızıstanda keçiriləcək

Xəbər verdiyimiz kimi, 8–13 sentyabr tarixlərində Qazaxıstanın paytaxtı Astanada V Dünya Köçəri Oyunları (World Nomad Games) keçirilib.

Oyunlarda 89 ölkədən 2800-ə yaxın iştirakçı 21 etnoidman növü üzrə yarışlarda iştirak edib. Ümumilikdə 100 dəst medal (qızıl, gümüş, bürünc) bölüşdürülüb.

Yarışlara ən çox iştirakçı Qazaxıstandan qatılıb – 195 nəfər. Qırğızıstanı 172, Rusiyanı 144 idmançı təmsil edib.

Medal əyarı və sayına görə də ilk üç yerdə bu ölkələrdir. Qazaxıstan 43-ü qızıl olmaqla 112 medal qazanaraq lider olub. İkinci yeri Qırğızıstan komandası tutub: 65 medal (o cümlədən 19 qızıl). Rusiya komandası 49 medalla (o cümlədən 12 qızıl) üçüncüdür.

İlk onluqda Özbəkistan, Türkiyə, İran, Macarıstan, Türkmənistan, Rumıniya və Polşa da var. Azərbaycan 8 idman növü (54 idmançı) ilə təmsil olunub və 7 medalla (2 gümüş, 5 bürünc) 21-ci olub.

Ümumilikdə V Dünya Köçəri Oyunlarına qatılan 89 ölkədən 33-ü medal qazanıb.

Oyunların keçirildiyi "Kazanat" ippodromu yaxınlığında qurulan "Köçərilər kainatı" adlı etnoaulda gündəlik mədəni proqram təqdim olunub. Burada 100-dən çox mədəni tədbir təşkil edilib. Ölkənin bütün bölgələri konsertlər, sənətkarlıq yarmarkaları keçiriblər.

Bundan əlavə, Qazaxıstan Milli Muzeyində "Köçərilər: tarix, bilgi və dərslər" adlı beynəlxalq elmi konfrans keçirilib. Üç gün davam edən konfransa Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Belarus, Çin, Böyük Britaniya, Cənubi Koreya, ABŞ və digər ölkələrdən 70-dən çox alim və mütəxəssis qatılıb.




Qeyd edək ki, V Dünya Köçəri Oyunları Qazaxıstanın Mədəniyyət və İdman Nazirliyi, Astana Şəhər Akimatı və Dünya Etnoidman Konfederasiyasının təşkilatçılığı, UNESCO və Türk Dövlətləri Təşkilatının himayəsi ilə keçirilib.




Növbəti, VI Dünya Köçəri Oyunları isə 2026-cı ildə Qırğızıstanda keçiriləcək. Bağlanış mərasimində Dünya Etnoidman Konfederasiyasının rəhbəri Bilal Ərdoğan Oyunların simvolunu Qırğız Respublikasının mədəniyyət, informasiya, idman və gənclər siyasəti naziri Altınbek Maksutova təqdim edib.

Xatırladaq ki, Dünya Köçəri Oyunları ilk dəfə Qırğızıstanın təşəbbüsü ilə 2014-cü ildə keçirilib. Bu ölkə 2016-cı və 2018-ci illərdə ikinci və üçüncü Oyunlara da ev sahibliyi (Çolpon-Ata şəhəri) edib. IV Oyunlar 2022-ci ildə Türkiyədə (Bursa) gerçəkləşib. Beləliklə, səkkiz il aradan sonra Dünya Köçəri Oyunları Qırğızıstana qayıdır.

## Xronoqraf

# Tarixdə bu gün

### Olaylar, faktlar (18 – 20 sentyabr)

### 214 il əvvəl...



**18 sentyabr 1810-cu ildə** Cənubi Amerikada İspaniya müstəmləkəçiliyinə qarşı müharibədə (1810–1826) ilk olaraq Çili müstəqilliyini elan edib. Sakit okeanla And dağları arasında, şimaldan cənuba təxminən 6500 km, şərqdən qərbə 400 km zolaqda yerləşən Çili dünyada ən maraqlı coğrafi mövqeyə malik ölkələrdəndir.

### 197 il əvvəl...

**20 sentyabr 1827-ci ildə** Rusiya-İran müharibəsi gedişində general İvan Paskeviçin başçılıq etdiyi rus qoşunları İrəvan xanlığının Sərdarabad qalasını ələ keçiriblər. Sərdarabad Ermənistan sovetləşəndən sonra eyniadlı rayonun mərkəzi olub. 1932-ci ildə Oktemberyan, 1992-ci ildə Armavir adlandırılıb.

### 154 il əvvəl...

**20 sentyabr 1870-ci ildə** Cüzeppe Haribaldinin rəhbərliyi ilə İtaliyanın birləşdirilməsi başa çatıb. Roma İtaliyanın paytaxtı elan edilib. Lakin Vatikan (Roma Papası) bununla razılaşmadı və 1929-cu ilədək onun İtaliya ilə münasibətləri açıq qaldı. Həmin il şəhərdə cəmi 44 hektar əraziyə malik Vatikanın dövlət statusu müəyyənləşdi.



### 134 il əvvəl...

**18 sentyabr 1890-cı ildə** Osmanlı hərbi donanmasının ən böyük gəmisi sayılan "Ertuğrul" freqatı Yaponiyaya dostluq səfərindən sonra geri qayıdarkən Kuşimoto sahil qəsəbəsi yaxınlığında güclü qasırğaya düşürək batıb.



Gəmidəki heyətdən 587 nəfər həlak olmuş, yalnız 69 nəfər xilas (yaponların köməyə gəlməsi ilə) olmuşdu. Bu faciədə ölənlərin xatirəsinə Kuşimotoda abidə və muzey yaradılıb.

### 100 il əvvəl...

**20 sentyabr 1924-cü ildə** İraqın şimalında Kərkük türklərinin yaşadığı və neftlə zəngin olan Mosul bölgəsi ilə bağlı məsələ Millətlər Liqasının müzakirəsinə verilib. İraq Britaniyanın protektoratlığında idi, Mosula isə Türkiyə iddia edirdi. Millətlər Liqası Britaniyanın istədiyi qərarı çıxardı və Mosul İraqın tərkibində (ingilislərin nəzarətində) qaldı.

### 39 il əvvəl...

**19 sentyabr 1985-ci ildə** Meksikanın paytaxtı Mexiko şəhərində baş verən 8,1 bal gücündə zəlzələ nəticəsində, rəsmi məlumatlara görə, 10 mindən çox insan həlak olub, 30 minə yaxın adam yaralanıb.

### 30 il əvvəl...

**20 sentyabr 1994-cü ildə** Bakıda, "Gülüstan" Sarayında Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" və "Günəşli" neft yataqlarının işlənməsinə dair beynəlxalq kontrakt imzalanıb. "Əsrin müqaviləsi" ilə Azərbaycanın yeni neft strategiyasının əsası qoyulub. Prezident Heydər Əliyevin fərmanı (16 avqust 2001-ci il) ilə 20 sentyabr "Neftçilər günü" kimi qeyd olunur.

### 22 il əvvəl...

**18 sentyabr 2002-ci ildə** Səngəçal terminalında Bakı-Tbilisi-Ceyhan boru kəmərinin təməlatma mərasimi keçirilib. Mərasimdə Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri Heydər Əliyev, Əhməd Necdət Sezər və Eduard Şevardnadze, ABŞ-nin energetika naziri Spenser Abraham iştirak ediblər. Boru kəmərinin inşası 2006-cı ilin yazında başa çatdı, rəsmi açılışı 2006-cı il iyulun 13-də gerçəkləşdi.

**Hazırladı: V.Orxan**

# Ölkəmiz Vyanada "Səyahət agentlikləri günü"ndə təmsil olunub



Azərbaycan Turizm Bürosu (ATB) Avstriya paytaxtında Vyana Ticarət Palatası tərəfindən təşkil olunmuş 13-cü "Səyahət agentlikləri günü"ndə ilin seçilmiş destinasiyası qismində təmsil olunub.

Dövlət Turizm Agentliyindən bildirilib ki, tədbirdə ATB ilə yanaşı, "Azərbaycan Hava Yolları" (AZAL) QSC-ni təmsil edən "Aviareps" şirkəti və Avstriyanın "Elite Tours" şirkəti Azərbaycanı önəmli destinasiya kimi tanıdan xüsusi turizm təklifləri ilə çıxış ediblər.

180-dək turizm sənayesi nümayəndəsini bir araya gətirən tədbirdə ölkəmizin zəngin mədəni irsi və turizm təcrübəsi haqqında məlumat verilib.

ATB-nin baş icraçı direktoru Florian Zenqstşmid çıxışında Vyanadan Bakıya birbaşa uçuşların əhəmiyyətindən bəhs edərək bunun yalnız Avstriya ilə deyil, regionda digər hədəf ölkələrlə də turizm əlaqələrinin genişləndirilməsinə müsbət təsir edəcəyini bildirib.

O, Avstriyada ölkəmizlə bağlı mütəmadi olaraq keçirilən turizm tanıtımı və təbliğat tədbirlərinin intensivləşdiriləcəyini qeyd edib.

Tədbirin sonunda Azərbaycanın tanınmış caz pianoçusu İsfar Sarabskinin ifasında musiqi nömrələri səslənib.

Qeyd edək ki, Avstriya vətəndaşları üçün sadələşdirilmiş viza rejimi çərçivəsində "ASAN Viza" elektron sistemi tətbiq olunur.

# Almaniyada Azərbaycanın təbliği üçün daha nələr etməli?



Almaniyanın Ştutqart və ətraf şəhərlərində yaşayan Azərbaycan icması ilə görüş keçirilib.

Almaniyadakı Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) rəhbəri Günay Mirzəyevanın moderatorluğu ilə keçirilən görüşdə öncə Almaniya Azərbaycanlıları Alyansının rəhbəri Nuran Abdullayev öz fəaliyyətləri barədə məlumat verib.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov ölkəmizin diaspor siyasəti barədə danışıb. Komitənin fəaliyyəti, xaricdəki Azərbaycan evləri, Koordinasiya şuraları, həftəsonu məktəbləri, Diaspor gənclərinin yay düşərgələri və digər layihələr barədə geniş məlumat verilib.

Günay Mirzəyeva çıxışında rəhbərlik etdiyi mərkəzin fəaliyyətini diqqətə çatdırıb.

Almaniyadakı AMM-in sədr müavini, italyan bəstəkarı və mədəni tədbirlər üzrə təşkilatçı Françesko Macco ölkəmizə səfəri və unudulmaz xatirələri barədə söz açıb.

İrəvan xanının nəslindən olan mühəndis Əmir Əli Sərdari İrəvani tarixə ekskurs edərək İrəvan xanlığının Azərbaycan tarixində yerini xatırladıb, xaricdə yaşayan azərbaycanlılara göstərilən qayğıya görə dövlətimizə təşəkkürünü bildirib.

İcma üzvləri Almaniyada fəaliyyət göstərən diaspor təşkilatlarının fəaliyyəti ilə bağlı təkliflərini bildirib, belə görüşlərin əhəmiyyətini qeyd edib, Ştutqartda Azərbaycan Evinin açılması ilə bağlı arzularını dilə gətiriblər.

Görüş musiqi proqramı ilə yekunlaşıb.

# Özbəkistan orkestri Londonda

Özbəkistan Milli Simfonik Orkestri dirijor Alibey Kabdurahmanovun idarəsilə Londonun ən böyük teatrlarından sayılan Kolizey Teatrında çıxış edib.

Bu konsert həm də məşhur bəstəkar-pianoçu Kirill Rixterin "Zamanın qum dənələri" multimedia şousunun Britaniya premyerası olub. Konsertdə musiqi, vizual effektlər və video instalyasiyalar üzvi surətdə təqdim edilib.

Bəstəkarın yaratdığı "The Richter Trio" ansamblı Özbəkistan Milli Simfonik Orkestri ilə səhnəni paylaşıb. Konsert proqramında Rixterin seçilmiş əsərləri, o cümlədən onun "Chropos" debüt albomundan pyeslər, həmçinin futbol üzrə dünya çempionatı və Olimpia oyunları üçün bəstələdiyi himnlər səslənib.

**Gülcahan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 2159
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641